# Xalq qəzeti

Xalqın qəzeti!

№ 169 (30573) 10 avqust 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


**Son 2 ildə Azərbaycan Prezidenti İlham Əliyev Mərkəzi Asiya ölkələrinə 16 dəfə səfər edib. Bu dövlətlərin liderləri isə ölkəmizdə, ümumilikdə, 15 dəfə olublar.**

# Azərbaycan və Mərkəzi Asiya strateji önəmli, vahid tarixi-mədəni coğrafi regiondur

## Prezident İlham Əliyevin Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə çıxışı





**Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə iştirak edib.**

Azərbaycan Prezidenti tədbirdə çıxış edib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyevi və digər dövlət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Kasım-Jomart Kemeleviç.

Hörmətli dövlət başçıları.

Əziz dostlar.

İlk növbədə, Mərkəzi Asiya Dövlət Başçılarının görüşündə fəxri qonaq qismində iştirak üçün dəvətə görə Qazaxıstan Prezidentinə təşəkkür etmək istərdim.

Ötən il mən Tacikistan Prezidenti Emoməli Şaripoviç Rəhmonun dəvəti ilə Düşənbədə keçirilən Sammitdə iştirak etmişəm.

Azərbaycanın bu görüşlərə dəvət olunması ölkələrimiz arasında mövcud dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir.

Bu, son 2 ildə mənim Mərkəzi Asiya ölkələrinə 16-cı səfərimdir. Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı, ümumilikdə, 15 dəfə ziyarət ediblər.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din və ortaq dəyərlər birləşdirir.

Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir.

Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir.

Ötən il Füzuli şəhərində Özbəkistanın hədiyyəsi olan Mirzə Uluqbəy adına orta məktəbin, bu il isə Qazaxıstanın hədiyyəsi olan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılışı olub. Həmçinin bu il Ağdam rayonunda Qırğızıstanın hədiyyəsi olan orta məktəb binasının təməlqoyma mərasimi keçirilib. Bu qardaşlıq dəstəyinə görə Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə təşəkkürümü bildirirəm.

*(ardı 2-ci səhifədə)*

# Mərkəzi Asiya "dəmir yumruğ"a çevrilməlidir

## *Astana görüşündə regional təhlükəsizliklə bağlı ciddi çağırışlar edildi*

**Qazaxıstan paytaxtı Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının məşvərət görüşü müzakirə edilən məsələlərin çeşidi və burada səslənən fikir və bəyanatların əhəmiyyəti baxımından yadda qalacaq.**



Məşvərət görüşündə səslənən və diqqəti dərhal cəlb edən bir məsələ də vardı. Bu, dövlət başçılarının sayca altıncı olan məşvərət görüşündə ilk dəfə Mərkəzi Asiyanın təhlükəsizliyi və müdafiəsi ilə bağlı məsələnin gündəmə gətirilməsi idi. Doğrudur, hələ görüş ərəfəsində Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Kazaxstanskaya Pravda" qəzetində bu mövzuda geniş analitik məqalə ilə çıxış etmişdi. Qazaxıstan lideri məqalədə qeyd edirdi ki, Mərkəzi Asiya dövlətlərinin müdafiə siyasəti sahəsində birləşməyə ehtiyacları var. Bunun artıq zamanın və reallığın tələbi olduğu aydın görünməkdədi.

"Mərkəzi Asiyanın perimetri boyunca davam edən çətin hərbi-siyasi vəziyyət fonunda müdafiə siyasəti və təhlükəsizlik sahəsində əməkdaşlığa ehtiyac var. Regional təhlükəsizlik arxitekturasının yaradılması, o cümlədən Mərkəzi Asiya üçün təhlükəsizlik riskləri kataloqunun hazırlanması və onların qarşısının alınması tədbirləri xüsusi aktuallıq kəsb edir", – Tokayev məqaləsində yazırdı.

Qazaxıstan lideri həmin məqalədə ağıllı başlar üçün kifayət qədər aydın siqnallar verirdi. Tokayevin özünün proqram xarakterli analitik yazısını "Mərkəzi Asiyanın intibahı: davamlı inkişaf və çiçəklənməyə doğru" adlandırması da təsadüfi deyildi. Təcrübəli siyasətçi, diplomat olan Qazaxıstan Prezidenti bir tərəfdən regionun tərəqqi dövrünə qədəm qoyduğuna diqqəti çəkir, digər tərəfdən isə dünyada gedən dəyişikliklər kontekstində bölgənin geosiyasi əhəmiyyətinin yenidən artması ilə bağlı yaranan təhdidlər barədə xəbərdarlıq notları göndərirdi.

Beləliklə, Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının altıncı məşvərət görüşündə təhlükəsizliklə bağlı edilən çağırışların arxasında regional və beynəlxalq güclərin şəbəkəsi dayanır. Mərkəzi Asiyanın sərvətinin cazibəsinin altında böyük güclərin dərin geosiyasi maraqları gizlənir.

Məsələyə qlobal miqyasda yanaşsaq, bir tərəfdən Birləşmiş Ştatlar və Avropa İttifaqı ilə Rusiya arasında, ilk növbədə, Ukraynada davam edən münaqişəyə bəslənən ümidlərdən doğan amansız rəqabət gedir. Bundan başqa, Çin geosiyasi səhnədə özünün yeni strateji trayektoriyasını qazanmağa çalışır.

"Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir". Bu fikri Prezident İlham Əliyev Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının məşvərət görüşündə deyib. Bu xüsusda ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusi vurğulayan dövlətimizin başçısı bildirib: "... Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir".

*(ardı 4-cü səhifədə)*

# Ermənistan–Hindistan: silah-sursat alış-verişi

## *İrəvanın 720 milyon dollarlıq "metallom siyasəti"*

**Məlum olduğu kimi, Hindistanın ilk "Akash-1S" zenit-raket kompleksləri bu ilin sonuna qədər Ermənistana gətiriləcək. Xəbəri "Indian Defence Research Wing" nəşri yayıb. Nəşrin məlumatına görə, İrəvan 720 milyon dollar dəyərində bu hava hücumundan müdafiə sistemlərindən 15 ədəd sifariş verib.**



Qeyd edək ki, "Akash-1S" sistemləri döyüş təyyarələri, idarə olunan raketlər və pilotsuz uçuş aparatları kimi hava təhdidlərinə qarşı etibarlı müdafiəni təmin edərək, eyni vaxtda aktiv hədəf axtarışı və hədəfləmənin kombinasiyasından istifadə edir. Maraqlıdır ki, bu sistem 1983-cü ildə hazırlansa da, üzərindən 30 il keçdikdən sonra istifadəyə verilib. O, 4–25 km radiusda hava hədəflərini vura bilir.

O da bildirilir ki, belə bir hava hücumundan müdafiə sisteminin alınması Ermənistanın hərbi imkanlarını əhəmiyyətli dərəcədə artıracaq. "Akash-1S"in uğurlu istehsalı və Ermənistana təhvil verilməsi Hindistanın müdafiə texnologiyasında artan rolunu və əsas qlobal silah ixracatçısı statusunu vurğulayır ki, bu məqamı "Indian Defence Research Wing" də diqqətə çatdırır.

*(ardı 4-cü səhifədə)*

# Gürcüstan 16 il əvvəl...



Səhifə ⇨ 3

# "Paris-2024": Alfonso Dominqes milli komandamıza 2-ci gümüş medalı qazandırdı



# Prezident İlham Əliyevin Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə çıxışı





**(əvvəli 1-ci səhifədə)**

Dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir. Bu xüsusda, ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini xüsusilə vurğulamaq istərdim. Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir.

Azərbaycan bərpaolunan enerji sahəsində Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında imzalanmış "Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi üzrə Əməkdaşlıq Memorandumu" yaşıl enerji sahəsində əməkdaşlığımızda ilk addımdır.

Qarşılıqlı fəaliyyətimizin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Bakı–Tbilisi–Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tonadək artırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta Dəhlizin praktiki cəhətdən önəmini daha da artırır.

Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan–Qazaxıstan, Azərbaycan–Qırğızıstan və Azərbaycan–Özbəkistan birgə investisiya fondları yaradılıb.

Həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəkdir.

Azərbaycan və Mərkəzi Asiya ölkələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. Bu xüsusda, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nı qeyd etmək istərdim. Ötən ilin noyabr ayında Bakıda keçirilmiş, SPECA-nın 25 illiyinə həsr olunmuş Zirvə görüşünün nəticələri əməkdaşlığımızın praktiki inkişafı baxımından əhəmiyyət kəsb edir. SPECA-nın Bakıda keçirilən Sammitində iştirak etdiklərinə görə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistan prezidentlərinə bir daha təşəkkür edirəm.

Azərbaycan beynəlxalq ictimaiyyətin yekdil dəstəyini qazanaraq bu ilin noyabr ayında COP29 iqlim konfransına ev sahibliyi edəcəkdir.

Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır.

Mən artıq Mərkəzi Asiya ölkələrinin prezidentlərinə rəsmi dəvət məktubları göndərmişəm və noyabrda Bakıda yenidən görüşməyimizə şad olaram.

Diqqətinizə görə təşəkkür edirəm.

# İlham Əliyev Şavkat Mirziyoyevin təltif olunması mərasimində





**Avqustun 9-da Astanada Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə "Mərkəzi Asiya Dövlət Başçılarının Fəxri nişanı"nın təntənəli təqdim edilməsi mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər dövlət başçıları tədbirdə iştirak ediblər.

# Astanada dövlət başçılarının şərəfinə rəsmi qəbul

**Avqustun 9-da Astanada Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin adından dövlət başçılarının şərəfinə rəsmi qəbul verilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Səfər başa çatdı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına səfəri avqustun 9-da başa çatıb.**

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Qazaxıstanın Baş naziri Oljas Bektenov və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

# Baş prokuror paytaxtda qəbul keçirib

**Avqustun 9-da Baş prokuror Kamran Əliyev Nəsimi Rayon Prokurorluğunun inzibati binasında Bakı şəhərinin Nəsimi rayonundan və digər bölgələrdən olan vətəndaşlarını qəbul edib.**

Qəbulda iştirak edən 55 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, eləcə də "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

***XQ***



# İstintaq davam edir



Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq İdarəsində istintaq olunan cinayət işi üzrə müvafiq əməlləri törətməsinə əsaslı şübhələr olan Müdafiə Nazirliyinin Mənzil-İstismar İdarəsinin sabiq rəisi, polkovnik Məmmədov Elmar Heybətqulu oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4-cü, 311.3.1-ci, 341.2.3-cü və digər maddələri ilə ittiham elan edilmiş, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun təqdimatına əsasən, Bakı hərbi məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi, o cümlədən hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin ediləcəkdir.

***XQ***

# Azərbaycanı Mərkəzi Asiya ilə tarixi köklər, qardaşlıq sevgisi birləşdirir

## Prezident İlham Əliyev isə bu ölkələrdə həmişə doğmalıqla qarşılanır

**Qazaxıstan, Qırğızıstan və Özbəkistan ilə fəal şəkildə investisiya layihələri həyata keçirilir. Artıq Azərbaycan – Qazaxıstan, Azərbaycan – Qırğızıstan və Azərbaycan – Özbəkistan birgə investisiya fondları yaradılıb. Həyata keçirilən "Rəqəmsal İpək Yolu" layihəsi rəqəmsal infrastrukturun inkişafına və rəqəmsal təhlükəsizliyə töhfə verəcəkdir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**



***Doğrudur, Azərbaycan Prezidentinin xarici səfərlərinin hamısı sürətlə inkişaf edən gənc müstəqil dövlətimiz üçün xüsusi önəm kəsb edir. Ancaq dövlət başçımızın Türkdilli dövlətlərə reallaşdırdığı səfərlər əlli milyonluq soydaşlarımızın hamısında böyük bir məmnunluq hissi yaradır. Bu arqumentin təsdiqini Azərbaycan liderinin dünənki Astana səfəri zamanı da gördük.***

Cənab Prezidentin Astana səfərinin məram və məqsədləri barədə dünəndən bəri kütləvi informasiya vasitələrində kifayət qədər mütəxəssis yazısı verildiyinə görə biz təfərrüata varmır, bəzi detallar üzərində dayanmaq istəyirik. Belə ki, anamız Yer kürəsi üçüncü və daha amansız, dəhşətli dünya müharibəsinin astanasındadır. Hətta bəzi konfliktoloqlar Rusiya – Ukrayna, İsrail – Həmas müharibələrinə, eləcə də Şimali və Cənubi Koreyalar arasındakı problemə, ABŞ– Çin, Rusiya – Avropa İttifaqı anlaşılmazlıqlarına istinadən bildirirlər ki, növbəti dünya müharibəsi artıq başlanıb. O müharibə başlanıbsa da, hələ gözlənilirsə də, mütərəqqi dövlətlərin rəhbərləri perspektivdə baş verəcək proseslərin mənfi fəsadlarının azaldılması üçün indidən müəyyən addımlar atırlar.

"Nəyi, nə zaman, necə etməyi hamıdan yaxşı bilən" Azərbaycan Prezidenti istənilən beynəlxalq tribunadan və çoxtərəfli əməkdaşlıqdan məhz xalqımızın sabahı üçün bəhrələnməyə çalışır və buna nail olur. Cənab Prezidentin Astana səfəri zamanı da şahid olduq ki, Mərkəzi Asiya ölkələrinin liderləri də sabah üçün atılacaq addımlara məhz Azərbaycan Prezidentinin istədiyi istiqamətlərdə hazırlaşırlar. Zaman sübut etdi ki, dünyada artan təhdid və çağırışlar ölkələrimiz arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsini tələb edir və çəkici eyni nöqtəyə vuran liderlər gücümüzü birləşdirməyi məqsədəuyğun sayırlar.

Dövlət başçımız dünən Astanada Mərkəzi Asiya və Azərbaycan Respublikasının Dövlət Başçılarının görüşündə xatırlatdı ki, biz ötən ay Qazaxıstanda keçirilmiş və Azərbaycanın da iştirak etdiyi "Birləşdik-2024" beynəlxalq əməliyyat-taktiki komanda-qərargah təlimini böyük uğurla başa çatdırdıq: "Həmçinin Azərbaycanın hərbi təhsil müəssisələrində Mərkəzi Asiya ölkələrindən olan müdavimlərin təhsil almaları bu sahədə münasibətlərin inkişafının göstəricisidir".

Azərbaycan Prezidenti BMT Baş Assambleyasının tribunası da daxil olmaqla bütün beynəlxalq tədbirlərdə dönə-dönə xatırladıb ki, əməkdaşlıq edən və ya bu arzuda olan ölkələrin qarşılıqlı fəaliyyətinin mühüm istiqamətlərindən biri də nəqliyyat-tranzit sahəsində əməkdaşlıqdır. Cənab Prezident həmin arqumentini Astanada da dilə gətirdi və əlavə etdi ki, Bakı – Tbilisi – Qars dəmir yolunun yükaşırma qabiliyyətinin 1 milyon tondan 5 milyon tonadək artırılması, Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması istiqamətində görülmüş işlər, Xəzər dənizində Azərbaycanın ticarət donanması üçün yeni gəmilərin sifariş edilməsi, eləcə də Mərkəzi Asiya ölkələrində infrastruktur layihələrinin həyata keçirilməsi Orta dəhlizin praktiki cəhətdən önəmini daha da artırır. Yəni bizim infrastrukturlarımız və texniki imkanlarımız Mərkəzi Asiya ölkələrinin iqtisadi inkişafına da xüsusi töhfələr verəcəkdir və verir.

Dünyanın hər yerində hamı yaxşı bilir ki, Azərbaycan Respublikası ən böyük beynəlxalq tədbir olan COP29-un astanasındadır. Maraqlıdır ki, həmin tədbirə hazırlıq prosesində ondan artıq ölkədə bu istiqamətli tədbirlər keçirilmişdir. Cənab Prezident Astanada da vurğuladı ki, Azərbaycan regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır. Təbii ki, Xəzərin ekoloji problemləri də həmin təşəbbüslərin sırasındadır. Çünki Mərkəzi Asiya ölkələri Aralın qurumasından sonra hansı problemlərin yarandığını yaxşı bilirlər. Doğrudur, Xəzər Aralın taleyini yaşamayacaq. Amma bütün hallarda Xəzərin problemləri qarşılıqlı əməkdaşlıq şərçivəsində həll oluna bilər. Bundan başqa, Azərbaycan bərpaolunan enerji sahəsində də Mərkəzi Asiya ölkələri ilə sıx əməkdaşlıqda maraqlıdır və bu istiqamətdə qarşılıqlı-səmərəli addımların atılması da gündəlikdədir.

Dövlət başçımızın Astana səfəri barədə danışarkən xüsusilə qeyd etməli olduğumuz məqamlardan biri də odur ki, Prezident İlham Əliyev həmin dövlət başçıları ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində keçirilən müxtəlif tədbirlərdə dövri olaraq görüşür və müvafiq məsləhətləşmələr aparılır. Ancaq buna baxmayaraq, Azərbaycan Prezidenti Mərkəzi Asiya Dövlət Başçılarının görüşlərinə dəvət olunur və ekspertlərin fikrincə, bu, ölkələrimiz arasında mövcud olan dostluq, qardaşlıq münasibətlərindən və inkişaf etməkdə olan əməkdaşlıqdan xəbər verir.

Üstəlik, bu dəvətlər yeni fakt deyil. Cənab Prezidentin özünün də xatırlatdığı kimi, o, son iki ildə Mərkəzi Asiya ölkələrinə 16 dəfə səfər etmişdir: "Həmin müddətdə Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan həmkarlarım Azərbaycanı ümumilikdə 15 dəfə ziyarət ediblər".

Onu da xatırladaq ki, Mərkəzi Asiya ölkələri Ermənistanın işğalından azad edilmiş Azərbaycan ərazilərinin bərpasına, sözün həqiqi mənasında, qardaşcasına kömək edirlər. Prezident İlham Əliyev Astanada xatırlatdı ki, Ermənistanın işğalından azad edilmiş Qarabağın bərpasına dəstək qardaşlıq münasibətlərimizin təzahürlərindən biridir: " Ermənistan tərəfindən təxminən 30 illik işğal dövründə bu ərazilərdə 9 şəhər və yüzlərlə yaşayış məntəqəsi məhv edilib. İşğaldan azad olunmuş ərazilərdə hazırda genişmiqyaslı bərpa işləri aparılır və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı davam edir".

Bu gün bütün dünya görür ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Mərkəzi Asiya ölkələrinin özünəməxsus, tarixi dəyəri olan hədiyyələri vardır. Xalqımız və dövlətimiz Füzulidə Mirzə Uluqbəy adına məktəbə, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinə və Ağdam rayonunda təməli qoyulmuş orta məktəbə görə, Özbəkistan, Qazaxıstan və Qırğızıstan prezidentlərinə minnətdardır.

Bu sətirləri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin dünən Astanada səsləndirdiyi fikirlərlə tamamlayırıq: "Biz oxşar çağırışlarla üzləşirik, ona görə də qarşılıqlı fəaliyyətin genişləndirilməsi, koordinasiyanın artırılması və iqlim gündəliyi üzrə təcrübə mübadiləsi xüsusi əhəmiyyətə malikdir. Fürsətdən istifadə edərək, Azərbaycan Prezidentinə, hörmətli dostumuz İlham Heydər oğluna bu payız COP29 qlobal iqlim konfransının keçirilməsində uğurlar arzulayıram".

***İttifaq MİRZƏBƏYLİ***

# Gürcüstan 16 il əvvəl...

## Rusiyanın müdaxiləsi və günün reallıqları

**16 il əvvəl bu günlərdə Rusiya–Gürcüstan müharibəsi davam edir, gərginlik pik həddə çatmışdı. Fransanın ozamankı prezidenti Nikola Sarkozi Rusiya Prezidenti Vladimir Putinin qəbuluna düşə bilmirdi ki, ondan Gürcüstanın içərilərinə doğru genişlənən işğalı dayandırmaq xahişini etsin. Sarkozi qapıdan qovulurdu. Hərçənd, savaşa son qoyulmasında onun xidmətlərini danmaq olmaz. Əlbəttə, buna xidmət demək mümkündürsə.**



2008-ci il avqustun 8-də başlanmış Rusiya–Gürcüstan müharibəsi cəmi dörd gün çəkdi. Ancaq bu dörd gün bir çox cəhətlərlə yaddaqalan oldu. İlk növbədə tam aydın oldu ki, Qərbə güvənərək müharibə aparmaq olmaz. Yəni Sarkozi heç də elə-beledən Putinin qapısının ağzını kəsdirməmişdi. O, yaxşı başa düşürdü ki, Gürcüstanı "ayının pəncəsində" əzdirən ölkəsinin də sırasında təmsil olunduğu Qərbdir. Sarkozi Putinə kollektiv Qərbin yalvarışını çatdırmağa gəlmişdi.

Bəli, 2008-ci il müharibəsini Gürcüstan başlatmış, separatçı Cənubi Osetiya və Abxaziyada öz hakimiyyətini bərpa etməyə çalışmışdı. Bu hərəkət Gürcüstanın ozamankı rəhbərliyinin, prezident Mixeil Saakaşvilinin ciddi anti-Rusiya təmayülünün məhsulu kimi meydana çıxmışdı. O vaxtadək daxili siyasətdə ciddi uğurlar əldə etmiş Saakaşvili Qərbin dəstəyinə arxalanmış və hesab etmişdi ki, bu dəstək ölkəsinin suveren ərazilərində öz konstitusyon hakimiyyətinin bərpasına gətirəcək. Ancaq o, ciddi şəkildə yanılmış və mahiyyətcə iqtidarda olduğu illərdəki ən böyük səhvini etmişdi. Elə bir səhv ki, Saakaşvilinin sonrakı siyasi taleyinə də təsir göstərmişdi.

Diqqət yetirək, ABŞ Dövlət Departamenti ötən il avqustun 8-də Rusiyanın Gürcüstana təcavüzünün 15-ci ildönümü ilə bağlı yaydığı bəyanatda bildirmişdi ki, Birləşmiş Ştatlar Rusiyaya 2008-ci ildə imzalanmış atəşkəs razılaşmasından irəli gələn öhdəlikləri yerinə yetirməsi üçün təzyiq göstərəcək.

Bu, nə demək idi? O demək idi ki, kollektiv Qərb yenə Gürcüstanı Rusiya üzərinə qaldırmaq prioritetini nəzərdən keçirməkdədir. Yada salaq ki, həmin Qərb Azərbaycan 44 günlük müharibə ilə öz ərazi bütövlüyünü bərpa edəndə, Gürcüstanı da şirnikləndirmişdi. Təxminən belə: Azərbaycan bacarıbsa, Gürcüstan niyə bacarmamalıdır? Halbuki, məsələnin belə qoyuluşu yolverilməzdir. Çünki durum tam başqadır. Arzu edək ki, gürcü xalqı üçün əlverişli şərait, tarixi şans yaransın.

ABŞ Dövlət katibi Antoni Blinkenin Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyinin açıqlandığı ötənilki bəyanatında vurğulanmışdı ki, 15 il əvvəl Rusiya suveren Gürcüstan dövlətinə təcavüz edərək, onun ərazisinin 20 faizini işğal edib: "Birləşmiş Ştatlar Gürcüstanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü ardıcıl olaraq dəstəkləyir. Rusiyanın hərəkətləri bu münaqişədən əziyyət çəkən insanların həyatını həmişəlik dəyişdi".

Bəyanatda o da vurğulanmışdı ki, Rusiyanın işğal zamanı hərəkətləri, o cümlədən Kremlin amansız dezinformasiya kampaniyaları və əhalinin kütləvi köçkünlüyü hələ də misilsiz iztirablara səbəb olur: "Ukraynada olduğu kimi, Gürcüstan xalqı da Rusiyanın beynəlxalq hüquqa hörmətsizliyinin və qonşularına hakim olmaq istəyinin nəticələrindən əziyyət çəkir. Deməli, Ukraynada olduğu kimi. Bəli, 16 il əvvəl yaşananlarla indiki durum arasında paralellər aparmaq mümkündür. Qərb Ukraynanı Rusiyaya qarşı çıxmağa vadar etdiyi kimi, vaxtilə Gürcüstanın da bu yolla getməsinə səbəb olmuşdu. Ancaq o zamandan fərqli olaraq, indi dünyanın anti-Rusiya köklənişi daha fərqlidir. Gürcüstan bu köklənişin ən çiy vaxtlarında hərəkətə keçmişdi ki, Saakaşvili ölkəsinin uğursuzluqla üzləşəcəyini görməli idi, amma görə bilmədi. Əslində, bütün resurslarla dəstəyinə baxmayaraq, Qərb bu gün Ukraynanı da uğursuzluğa sürükləyib. Necə ki, 16 il əvvəl Gürcüstan qurban idi, indi də Ukryana o aqibəti yaşayır. Sadəcə olaraq, o vaxt Qərb reallığı daha tez dərk etmişdi, indi anlamır və anti-Rusiya xəttində israrlıdır. Bu israrlılığın nəticəsidir ki, hazırda Ukrayna əraziləri viran qalıb, yüz minlərlə itki var.

Qərbdə Rusiya–Gürcüstan müharibəsinin 16-cı ildönümü ilə bağlı bəyanatlar məsələsində bildirilir ki, Rusiya Gürcüstanın Abxaziya və Cənubi Osetiya regionlarının qondarma müstəqilliyini tanımaqdan imtina etməlidir. Bu tədbirlər yüz minlərlə məcburi köçkünün təhlükəsiz şəkildə öz evlərinə qayıtmalarını və ləyaqətlə yaşamalarını təmin etmək üçün vacibdir.

Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Beynəlxalq hüquq baxımından Gürcüstan torpağı olan Cənubi Osetiya və Abxaziya indiki durumda faktiki olaraq Rusiyanın işğalı altındadır. Əlbəttə, Kreml buna işğal demir və arqumentlərində özünü haqlı sayır. Ancaq yekun nəticə heç bir halda dəyişmir. Ümumən, keçmiş SSRİ-nin müttəfiq respublikalarındakı münaqişəli bölgələr – Qarabağ, Cənubi Osetiya və Abxaziya, Moldovadakı Dnestryanı, Ukraynadakı Donetsk və Luqansk – bunlar hamısı sabiq imperiyanın böyük coğrafiyadakı xalqlara qoyub getdiyi, dincliyi və əmin–amanlığı daim təhdid edə biləcək qorxunc miraslardır. Çox təəssüf ki, nəinki Rusiya rəsmiləri, eləcə də ölkənin ictimai rəyi bu miraslara qlobal mövcudiyyət faktorları kimi yanaşmaqdadır. Birləşmiş Ştatların, ümumən kollektiv Qərbin anti-Rusiya cəbhəsini də elə sadalanan regionlar təşkil etməkdədir. Deməli, 16 il əvvəl yaşananlara bu günün prizmasından yanaşma aktuallığını qorumaqdadır. Belə görünür, bu xəmir hələ çox su aparacaq.

***Ə.RÜSTƏMOV***
***XQ***

KÖŞƏ

# Erməni korafəhmliyi

**Təcavüzkar Ermənistanın deportasiya və işğalçılıq siyasəti nəticəsində öz tarixi torpaqlarını tərk etmək məcburiyyətində qalıb uzun illər qaçqınlığın və köçkünlüyün əzab-əziyyətini yaşamış azərbaycanlıların sayını ermənilərə məxsus bəzi internet resursları yenidən şübhə altına almağa cəhd göstərib. Bu dəfə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun bu il sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərinə həsr olunmuş mətbuat konfrasında söylədiyi rəqəmlərlə manipulyasiyaya əl atılıb.**



**Elşən ƏLİYEV**
**elshan361@mail.ru**

MSK sədri deyib: "Bizim 400 minə yaxın məcburi köçkün seçicimiz hələ də Azərbaycanın müxtəlif bölgələrində səs verməli olacaq". Hansısa korafəhm erməni isə dərhal bu rəqəmi əsas götürərək, ölkəmizdə 1 milyondan çox qaçqın və məcburi köçkünün olması barədə həqiqəti təftiş etmək fikrinə düşüb və öz "hesablamaları" ilə belə qənaətə gəlib ki, guya, həmin rəqəm yarıbayarı şişirdilir. "Hara yox olub yarım milyon mifik azərbaycanlı qaçqın?" – deyərək öz "riyazi biliyini" nümayiş etdirən bu cəfəng düşüncənin sahibi əhalinin məcburi yer dəyişməsini təsnifatlandıran beynəlxalq terminalogiyadan, heç şübhəsiz, tam xəbərsizdir. Bu erməniyə "qaçqın" və "məcburi köçkün" anlayışlarının mahiyyəti barədə izahat verməyə ehtiyac da görmürük. Lakin erməni mənbələrində bu "saxta rəqəmi" görən həmvətənlərimizi mövcud reallıq barədə bir daha məlumatlandırmaq istərdik.

Təbii ki, MSK sədrinin ictimaiyyətə açıqladığı faktlar, necə deyərlər, həqiqətə tam uyğundur. Hazırda ölkəmizdə məcburi köçkün statusu olan vətəndaşların sayı 700 minə yaxındır ki, onlardan da 400 mindən bir qədər çoxu səsvermə hüququna malikdir və seçkilərdə iştirak edə, səs verə bilər. Onlar da, hələ ki, respublikamızın müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşıblar və həmin ərazilərdə səsvermədə iştirak edəcəklər.

MSK sədri işğaldan azad edilmiş ərazilərdə də növbədənkənar parlament seçkilərinə aparılan hazırlıq işlərindən danışıb. Həmin ərazilərdə yaradılmış 34 daimi seçki məntəqəsində bərpa-quruculuq işlərində iştirak edən vətəndaşlarımız və Böyük Qayıdış proqramı çərçivəsində indiyədək doğma yurduna qayıtmış keçmiş məcburi köçkünlər də səs verəcəklər. Onu da qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə bərpa olunan və yenidən salınan yaşayış məntəqələrinə daimi məskunlaşmaq üçün köçürülənlərin sayı hazırda 7 min nəfərdən çoxdur.

Təəssüf ki, ermənilərin ölkəmizə qarşı mina terrorunun yaratdığı təhlükə hələ də qalmaqdadır və işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın sürətləndirilməsinə mane olur. Bununla belə, geri qayıdan əhalinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində genişmiqyaslı, intensiv tədbirlər davam etdirilir. Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, 2026-cı ilin sonunadək 34 min 500 ailə öz doğma yurduna qayıtmalıdır.

...Ermənilərin məkrli planları tamamilə iflasa uğradı, məcburi köçkün vətəndaşlarına sahib çıxan Azərbaycan dövləti indi də Qarabağı və Şərqi Zəngəzuru dirçəldərək onların öz ata-baba yurdlarına qayıdıb rahat, təhlükəsiz, firavan yaşaması üçün məqsədyönlü iş aparır. Necə deyərlər, ermənilərin "hesab-kitabı" çoxdan bağlanıb, gerçək rəqəmləri təhrif etməyə göstərilən cəhdlərin isə heç bir əhəmiyyəti qalmayıb...

# Mərkəzi Asiya "dəmir yumruğ"a çevrilməlidir

(əvvəli 1-ci səhifədə)

Beləliklə, dünənə qədər pıçıltı ilə danışılanlar bu gün ucadan söylənilir. Çünki regionda bunu qaçılmaz edən yeni reallıq formalaşıb. Bu reallıq təkcə Qazaxıstan üçün deyil, həm də bütün region üçün hansı tədbirlərin görülməsinin vacibliyini ortaya qoyub. Prezident Tokayevin dediyi kimi, Mərkəzi Asiya dövlətlərinin müdafiə siyasəti sahəsində birləşməyə ciddi ehtiyacları var. Həm də Qazaxıstan Prezidenti çıxışında Mərkəzi Asiyanın "perimetri"ndən danışdı. Yəni o, bu zaman şimal istiqamətinə və oradan gələ biləcək təhdidlərə də eyni dərəcədə hazırlaşmağın vacibliyinə eyham vurdu. Bu, sağlam məntiqə söykənən yanaşmadır. Bu gün Mərkəzi Asiya dövlətlərinin elitasının "siyasi mətbəxlərdə" müzakirə etdiyi əsas mövzulardan biri budur: müharibədən sonra nə olacaq?

Amma bu o demək deyil ki, sabahdan Rusiyanın iştirakı olmadan region üçün yeni təhlükəsizlik arxitekturasının inşasına başlanmalıdır. Sadəcə, Qazaxıstan Prezidenti regionun digər dövlətlərinin başçılarının dilə gətirməyə çəkindiyi həqiqəti söyləməyi özünə borc bildi. İndi bu mövzuda geniş müzakirələr başlayacaq...

"Azərbaycan COP29-a sədrliyi çərçivəsində regionumuzda iqlim dəyişmələri ilə bağlı problemlərin həlli üçün Mərkəzi Asiya ölkələri ilə birgə təşəbbüsləri dəstəkləməyə hazırdır". Bu fikri Prezident İlham Əliyev məşvərət görüşündə iştirakçıların nəzərinə çatdırıb. Buna cavab olaraq Qazaxıstan Prezidenti deyib: "Biz oxşar çağırışlarla üzləşirik, ona görə də qarşılıqlı fəaliyyətin genişləndirilməsi, koordinasiyanın artırılması və iqlim gündəliyi üzrə təcrübə mübadiləsi xüsusi əhəmiyyətə malikdir. Fürsətdən istifadə edərək, Azərbaycan Prezidentinə, hörmətli dostumuz İlham Heydər oğluna bu payız COP29 qlobal iqlim konfransının keçirilməsində uğurlar arzulayıram".

Astanada keçirilən təntənəli toplantının arxasında, həmçinin regional və geosiyasi problemləri əhatə edən ciddi çağırışların gizləndiyini sezmək çətin deyildi. Regional kontekstdə narahatlığın ifadə olunduğu çağırışlar təhlükəsizliklə yanaşı, logistika, su resurslarından istifadə və iqtisadi əməkdaşlıqla bağlıdır.

**Ekspert rəyi**



**Cavid VERDİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin əməkdaşı, politoloq:**

– Mərkəzi Asiya dövlətləri arasında hərbi sahədə əməkdaşlıq barədə çıxışları heç də təsadüfi saymıram. Bu dövlətlər müstəqilliklərini qazandıqdan sonrakı 30 ildə təhlükəsizlik baxımından bir neçə mərhələdən keçiblər. Birinci mərhələdə region və regiondankənar böyük dövlətlər Mərkəzi Asiya, Cənubi Qafqaz, xüsusilə türkdili ölkələrin təhlükəsizliklərini təmin etmək üçün müxtəlif təkliflər verdilər, hətta müqavilələr imzaladılar. Amma sonradan Əfqanıstan problemi yaşandı, bundan başqa, böyük güclərin regionda rəqabəti ortaya çıxdı. Məlum oldu ki, həmin böyük güclər təhlükəsizliyi təmin etmək əvəzinə, bölgədə yaranmış boşluqdan istifadə edərək, bundan öz maraqları naminə istifadə etməyə çalışdılar.

Artıq region dövlətləri əmin oldular ki, öz təhlükəsizliklərini özləri təmin etməlidirlər. Bunu ilk dəfə bəyan etdilər. Bunun üçün onların imkanları və potensialları da var. İkinci mərhələyə gəlincə, Azərbaycan Prezidenti bunu həm Türk Dövlətləri Təşkilatının sammitlərində, eləcə də Bakıda keçirilən beynəlxalq tədbirlərdə dəfələrlə qeyd edib ki, bu region dövlətləri arasında təhlükəsizlik sahəsində əməkdaşlıq zəruridir. Bu, həm beynəlxalq səviyyədə tanınmış sərhədlərin, suverenliyin qorunması, eyni zamanda, terrorizmə, regionu təhdid edən təşkilatlara qarşı birgə mübarizə çox önəmlidir.

Fikirimizcə, burada ən vacib məqamlardan biri də Türk dövlətlərinin planlaşdırdığı və həyata keçirdiyi enerji və nəqliyyat layihələrinin təhlükəsizliyi məsələsidir. Türk dövlətləri olaraq dünyanın mərkəzində yerləşirik və gələcəkdə beynəlxalq ticarət yolları də bizim reallaşdıracağımız Orta dəhlizdən keçəcək. İstər enerji nəqli, istər yükdaşımalar, istərsə də kabel xətləri olsun, əgər bu dəhlizin təhlükəsizliyini təmin edə bilməsək, layihə baş tutmayacaq. Bu problemin həlli üçün Türk dövlətləri – Türkiyə, Azərbaycan və Mərkəsi Asiya ölkələri arasında hərbi təhlükəsizliyə dair əməkdaşlıq qurulmalıdır. Yəni regionun təhlükəsizliyini özümüz təmin etməliyik. Əks-təqdirdə xarici qüvvələr regionda öz maraqları çərçivəsində güc və təhlükəsizlik boşluqlarından istifadə etməyə çalışacaqlar. Astanada səsləndirilən mesajlar olduqca vacibdir. Enerji və nəqliyyat sahəsində əməkdaşlığın təhlükəsizliyini təmin edə bilməsək, əməkdaşlığın özü mənasını itirəcək. Bəli, bu gün təhlükəsizlik bir nömrəli məsələdir.

**İmran BƏDİRXANLI**
**XQ**

**Replika**

# Brüsselin "kadrlar qalereyası"

**Əgər mənzil-qərargahı Belçika paytaxtında yerləşən Avropa İttifaqı rəsmilərinin anti-Azərbaycan "kadrlar qalereyasını" tərtib etməli olsaydıq, sözsüz ki, "şərəf lövhəsi"nin birinci sırasını ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın portreti "bəzəyərdi". Axı, o, Ağ evdəki əsas iş yeri ilə yanaşı, "qoca qitə"nin ali institutunda da "yarımştat" fəaliyyət göstərməkdədir. Onun ABŞ Konqresində, eləcə də Brüsseldə "peresadka" etməklə İrəvana səfərlərində Qarabağ ermənilərinin "geriyə qayıtması", onların "təhlükəsizliyinə beynəlxalq təminatın" verilməsi barədə bəyanatları hələ qulaqlarımızdan getməyib. Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar, qurumun diplomatiya idarəsinin rəhbəri Josep Borrell isə ilk "üçlüy"ü tamamlamağa potensial namizədlər kimi nəzərdən keçirilə bilərlər.**



Aİ-nin "qəhrəmanlar qalareyası"nda adını çəkdiyimiz Toivo Klaar bu yaxınlarda bəyan edib ki, Qarabağ erməniləri başqa məsələdir, Qərbi Azərbaycan azərbaycanlıları isə ayrı mövzudur. Əlbəttə ki, Ermənistandan qovulan azərbaycanlılarla Qarabağdan könüllü çıxan erməniləri həm say, həm də çıxdıqları şərtlər baxımından müqayisə etmək, sadəcə, mümkün deyildir. Aydındır ki, Xankəndidəki separatçı xunta rejiminin girovuna çevrilmiş və məhz onların fitvası ilə bölgəni könüllü tərk etmiş 100 minə yaxın erməni ilə tarixi torpaqlarından döyülərək, zorla qovulan, birmənalı şəkildə, etnik təmizləmənin qurbanı olan 300 minə yaxın soydaşımızın durumları tamamilə fərqlidir. Bəlkə, cənab Klaar məlum açıqlamanı verərkən fikrindən başqa şeylər keçirib? Hər halda, onun ermənipərəst çıxışlarını birinci dəfə deyil ki, eşidirik və ortada təəccüblənməli heç nə yoxdur.

"Qəhrəmanlar qalereyası"nın sakinlərindən biri də Avropa Komissiyasının xarici siyasət məsələləri üzrə nümayəndəsi Piter Stanodur. Ukrayna silahlı qüvvələrinin Rusiyanın Kursk vilayətinə hücumunu şərh edən Stano deyib ki, Aİ Ukraynanın bu cür davranışlarına qarşı deyil. Onun qənaətinə görə, "Ukraynanın özünü müdafiə etmək, o cümlədən təcavüzkara öz ərazisində zərbə endirmək hüququ var".

Oxucu bizə sual ünvanlaya bilər ki, axı, burada bizim üçün təəccüblü nə var? Bəli, ilk baxışda Avrokomissiya diplomatının açıqlamasında Azərbaycana toxunacaq heç nə sezilmir. İntəhası, Stanonun sözlərinin altına lap yaxından nəzər saldıqda "xoruzun gizlənmiş quyruğunu" görmək mümkündür. Söhbət Aİ rəsmisinin siyasi ritorikasının cızdığı tablodan gedir. Həmin tabloda açıq-aşkar görünür ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpasından danışanda tamamilə fərqli mövqedən çıxış edən Aİ nümayəndələri Ukrayna məsələsində "demokratlara", beynəlxalq hüquq carçılarına çevrilirlər. Azərbaycan işğal altındakı ərazilərini geri alanda və ya şərti sərhəddə Ermənistanın silahlı təxribatlara cavab verəndə Aİ, eləcə də Avropanın digər strukturları dərhal narazılıqlarını bildirmişdilər. Bununla da kifayətlənməyib, ölkəmizi sanksiyalarla hədələmişdilər. Bəs indi nə oldu? Brüsseldə əyləşənləri Ukrayna ilə bağlı problemi tamamilə başqa üslubda şərh etməyə vadar edən hansı səbəbdir? Onların məntiqindən belə çıxır ki, Ukraynanın özünümüdafiə hüququnu tanıyırlar, amma eyni hərbi-siyasi situasiya ilə üzləşən Azərbaycanın belə bir hüququnu qəbul etmirlər. Niyə? Bəli, hörmətli oxucu, sual ritorikdir. Əvvəla, Aİ-nin ikili standartlara, bəzi hallarda isə "xristian həmrəyliyinə" söykənən mövqeyinə biz xeyli vaxtdır təəccüblənmirik. Sonrası, bu sualın cavabını özümüz də yaxşı bilirik.

30 il ərzində, Brüssel də daxil, kollektiv Qərb Qarabağın Ermənistan tərəfindən işğalına yalnız göz yummadı, həm də ona hərtərəfli dəstək verdi. Buna görə 44 günlük müharibədən əvvəl Ermənistan kimi, Qərb də Cənubi Qafqazdakı geosiyasi mövqeyindən çox məmnun davranırdı. Azərbaycan itirilmiş əraziləri geri qaytarmağa nail olduqdan, tarixi ədaləti bərpa etdikdən, xüsusilə 2022-ci ilin fevralında Rusiya–Ukrayna münaqişəsinin açıq hərbi müstəviyə keçməsindən sonra Moskvanın "diqqətinin yayınmasından" faydalanmağa çalışan Qərb Moskvanın cənubdakı forpostunu ələ keçirməyə girişdi. Bu minvalla ermənipərəst Qərb üçün Qafqaz təmsilçisi Ermənistan, qeyri-rəsmi şəkildə olsa da, Azərbaycan düşmən elan edilir.

Son vaxtlar Aİ, kollektiv Qərb daha Azərbaycana özlərinin "tövsiyələr" paketlərini göndərmir. Axı, onların məqsədi bu yolla müstəqil siyasət yürüdən rəsmi Bakıya müxtəlif xarakterli "geosiyasi maneələr" yaratmaqdır. Heç əziyyət çəkməsinlər, o maneələri aradan qaldırmaq üçün Azərbaycanın yetərincə gücü və iradəsi var. Bilirik, əldə etdiyimiz suverenliyimiz uğrunda mübarizəni hələ davam etdirməliyik Çünki bu məsələdə "başımızı ağrıdanlar" çox olacaq. Amma o qüvvələrin anti-Azərbaycan "qalereyası" nə qədər zəngin olsa da, onların öhdəsindən gəlməyə sözümüz də yetər, gücümüz də...

***İ.HƏSƏNQALA***
***XQ***

# Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclası

**Avqustun 9-da Bakıda Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclası keçirilib.**

Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən sədri, Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Hökumətlərarası Komissiyanın Rusiya tərəfindən sədri, Rusiya Federasiyası Hökumətinin sədr müavini Aleksey Overçukun sədrliyi ilə keçirilən iclasda hər iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri və səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrinə əsaslanan Azərbaycan-Rusiya münasibətlərinin hərtərəfli inkişafından məmnunluq ifadə edilib.

Qeyd olunub ki, Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və etimada əsaslanan münasibətləri sayəsində bu gün dövlətlərarası əlaqələr strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq ruhunda davamlı şəkildə möhkəmlənir.

Eyni zamanda, vurğulanıb ki, çoxşaxəli strateji tərəfdaşlıq 260-dan çox imzalanmış sənədi özündə birləşdirən möhkəm hüquqi baza ilə təmin olunub.

2022-ci il fevralın 22-də imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə xüsusi əhəmiyyətə malikdir.

Rusiya Azərbaycanın üçüncü ən böyük ticarət, qeyri-neft ixracına görə isə birinci tərəfdaşıdır. Bildirilib ki, 2023-cü ildə ticarət dövriyyəsi 17,5 faiz artaraq rekord həddə, təxminən 4,4 milyard ABŞ dollarına çatıb. Həmçinin cari ilin birinci yarısında əmtəə dövriyyəsi dinamik artım nümayiş etdirir.

Tərəflər investisiya əməkdaşlığında artımın müsbət dinamikasını məmnunluqla qeyd ediblər. Rusiya biznesinin Azərbaycan iqtisadiyyatının bir çox sahələrində geniş təmsil olunduğu vurğulanıb. Azərbaycan hökuməti rusiyalı investorların rahat işləməsi üçün hər cür şərait yaradır.

Tərəflər sənaye əməkdaşlığının davamlı inkişafını qeyd edərək, Azərbaycanın müxtəlif sənaye obyektlərində dərman vasitələrinin birgə istehsalı, yük avtomobillərinin yığılması, yük avtomobilləri və kənd təsərrüfatı texnikası üçün xidmətlərin göstərilməsi sahəsində əməkdaşlığın uğurlu nəticələrini qeyd ediblər.

Azərbaycan şirkətləri də Rusiya iqtisadiyyatına fəal şəkildə sərmayə qoyur. Rusiyanın regionlarında sanatoriya-turizm mərkəzlərinin, mehmanxana komplekslərinin, meyvə-tərəvəz konservləri və çay istehsalı fabriklərinin tikintisi layihələri uğurla həyata keçirilib.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın dinamikasından məmnunluq ifadə olunub. Azərbaycan Rusiyaya kənd təsərrüfatı məhsullarının əsas tədarükçüsü olan on ölkədən biridir. 2023-cü ildə Rusiyaya meyvə və tərəvəz ixracı təxminən 9 faiz artıb.

Qeyd edilib ki, hər iki tərəf nəqliyyat-tranzit sektorunda əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verir. Ötən il ikitərəfli yükdaşımalarının ümumi həcmi 10 faizdən çox artıb. Bu il də müsbət tendensiya müşahidə olunur - ilin birinci yarısında artım 3 faiz təşkil edib.

Tərəflər "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı ilə bağlı Azərbaycan və Rusiya prezidentlərinin tapşırıqlarının icrasını üzrə birgə işi davam etdirməyə qarşılıqlı hazır olduqlarını təsdiq ediblər.

Bu xüsusda Azərbaycan-Rusiya dövlət sərhədindən buraxılış məntəqələrinin inkişafı üzrə Yol Xəritəsinin əhəmiyyəti qeyd edilib.

Neft-qaz sektoru ikitərəfli əməkdaşlığın mühüm sahələrindən biri kimi səciyyələndirilib.

Həmçinin Rusiya turizm sektorunda da Azərbaycana gələn turistlərin sayına görə lider mövqe tutur.

Eyni zamanda, qeyd olunub ki, humanitar əməkdaşlıq ənənəvi olaraq Azərbaycan-Rusiya münasibətlərinin əsas vektoru olaraq qalır.

Azərbaycan Respublikasında rus dilində tədrisin olduğu 324 məktəb var ki, burada 800 min məktəbli rus dilini ikinci xarici dil kimi öyrənir.

Lomonosov adına Moskva Dövlət Universitetinin və Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları da ölkədə uğurla fəaliyyət göstərir, tələbələrə rus dilində yüksək keyfiyyətli təhsil almaq imkanı yaradır.

Tərəflər mədəni, elm və gənclər mübadiləsinin intensivləşməsini alqışlayıblar. İyun ayında Azərbaycanda Rusiya Mədəniyyəti Günləri böyük uğurla keçirilib.

İclasın yekunlarına dair Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Hökumətinin sədr müavini Aleksey Overçuk Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşıq üzrə Hökumətlərarası Komissiyanın 22-ci iclasının Protokolunu imzalayıblar.

***XQ***

# Ermənistan–Hindistan: silah-sursat alış-verişi

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, sözügedən nəşr bir müddət əvvəl də Ermənistanın Hindistanın "MR-SAM" və "Akash-NG" hava hücumundan müdafiə sistemlərinin erməni ordusunun tələblərinə nə dərəcədə cavab verdiyini öyrəndiyini yazmış, bildirmişdi ki, rəsmi İrəvanın təmsilçiləri tərəfindən mövcud istiqamətdə qiymətləndirmələr aparılır. Qiymətləndirmələr əsasında isə həmin sistemlərin alınmasına qərar veriləcək.

Əslində, MR-SAM orta mənzilli hava hücumundan müdafiə sistemi bir çox cəhətdən Ermənistan üçün daha çox üstünlük verən variantdır. 2023-cü ilin əvvəlində ölkənin bu hava hücumundan müdafiə sistemi almaq məqsədi ilə Hindistana müraciət etdiyi bildirilir. Orta mənzilli "yer-hava" raketi olan sistemin istehsalı Hindistanda, demək olar, tam lokallaşdırılmasına baxmayaraq, hələ də aradan qalxmayıb. Deyilənə görə, o, İsrailin müdafiə sənayesinin istehsalı olan raket sistemlərinin tam oxşarıdır. Amma bu fikir yerinə oturmur. Niyəsinə aydınlıq gətirəcəyik.

Əslində, Hindistan vaxtaşırı olaraq Ermənistanın ondan hava hücumundan müdafiə sistemləri alması mövzusunu gündəmdə saxlayır. Heç şübhəsiz, bu, ölkənin qlobal maraqları baxımından önəmlidir. Ümumən isə Ermənistanın Hindistandan silah idxalına dair məsələ yalnız indinin söhbəti deyil. Yada salaq ki, bu ilin iyulunda ikincinin birinciyə snayper tüfənglərı satmağı planlaşdırdığı barədə məlumat yayılmışdı. Bildirilmişdi ki, Hindistanın "SSS Defence" şirkəti özünün istehsal etdiyi snayper tüfənglərinin Ermənistana satışı ilə bağlı müqavilə imzalayıb. Əlbəttə, vurğulanmalı digər məqamlar da var.

Bəli, Hindistan Ermənistanın əsas hərbi tərəfdaşı qismində çıxış edir. Amma maraqlıdır ki, Dehli dünya silah bazarında satıcı yox, daha çox alıcı kimi tanınır. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) beynəlxalq silah transferləri ilə bağlı hesabatında bildirilib ki, ölkə xaricdən silah alışına görə dünya birincisidir. Belə olan halda, görəsən, Ermənistan ondan hansı silahları alır?



Hindistan mühüm silahların istehsalı üçün texnologiyaya malik deyil, həmin texnologiyanı xaricdən idxal edir. Digər tərəfdən, Ermənistanın ondan almağa maraq göstərdiyi "BrahMos" raketləri Rusiyanın "Oniks" raketlərinin oxşarıdır. Rəsmi İrəvanın Hindistandan idxal etdiyi "Pinaka" reaktiv yaylım atəş sistemləri Rusiyanın "Smerch" sisteminin texnologiyası əsasında istehsal olunur. "Konkurs" tank əleyhinə raketlərinin patenti də Rusiyaya məxsusdur. Ən əsası, bu silahların heç biri tələblər səviyyəsində deyil, yararsızdır. Yararsızlıqdan söz düşmüşkən, Ermənistanın sabiq müdafiə naziri Arşak Karapetyanın bununla bağlı həyəcan təbili çaldığı məlumdur. O, mövcud hakimiyyətin hərbi-texniki sahədə siyasətini tənqid edərək bildirmişdi ki, Hindistandan alınmış silahlar yararsız vəziyyətdədir: "Mənim əlimdə sənəd var ki, Hindistan silahlarını təmir edib, xidmətə hazır vəziyyətə gətirmək mümkün olmur".

Əvvəldə də bildirdik ki, Ermənistana silah satışı ilə bağlı məsələni ictimailəşdirən Hindistandır. Onu da vurğuladıq ki, bu, Dehlinin qlobal maraqlarından qaynaqlanır. Qlobal maraq dedikdə, əlbəttə, Hindistan dünyadakı say üstünlüyünü real müstəviyə daşımaq planları qurur. Yəni kəmiyyəti keyfiyyətə çevirmək niyyəti güdür, həmçinin qlobal oyunlarda iştirak arzusunu ortaya qoyur. Ancaq indiki məqamda Hindistanın daha çox çalışdığı özünü nəhəng silah ixracatçısı obrazında təqdim etməkdir. Ermənistan bu təqdimatda mühüm elementdir. Həm də ona görə ki, ondan başqa Hindistanın sınıq-salxaq silah-sursatını alan çox az ölkə var.

***Ə.CAHANGİROĞLU***
***XQ***



# Milli Məclisə seçkilərə 21 gün qaldı

## SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!



# "Qanunsuz təbliğat sübut olunmalıdır"

**"Təşviqat kampaniyası başlamazdan öncə təbliğat aparan namizədlər olubsa, bununla bağlı sənəd təqdim edilməlidir".**



Bunu MSK sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib. O, bununla bağlı sübutları özündə ehtiva edən rəsmi sənədlə müraciət ünvanlanmasının zəruri olduğunu bildirib.

Qeyd edək ki, dünəndən etibarən növbədənkənar parlament seçkilərinin təşviqat mərhələsi başlayıb. Artıq təşviqat üçün hər dairə üzrə 16 qapalı, 27 açıq məkan olmaqla 5509 ünvan müəyyənləşdirilib.

*XQ*

# Fikir və söz azadlığı sərhədsiz deyil

## *Seçkiqabağı təşviqata dair ümumi tələblər, təşviqat subyektləri, onların hüquq və vəzifələri*

**Konstitusiya hüququnun ən əsas institutlarından hesab edilən seçki hüququ və seçki sistemi hakimiyyətin formalaşmasını şərtləndirən siyasi bir anlayış olaraq xarakterizə olunur. Seçkiqabağı təşviqat isə bütövlükdə, seçki sistemində əhəmiyyətinə, xarakterinə və mahiyyətinə görə, seçki kampaniyasının əsas məqsədinin müəyyənləşməsində roluna görə mühüm və həlledici mərhələ hesab olunur.**



Seçkiqabağı təşviqat parlament seçkilərində qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyanın, siyasi partiyalar blokunun qanunvericilik çərçivəsində özünün lehinə səs verməyə çağıran, yaxud alternativinin əleyhinə çağırışlar edən, ona səs verməməyə çağırmaq məqsədi daşıyan seçki fəaliyyətidir.

Seçkiqabağı təşviqat qanunvericiliyə uyğun olaraq seçkilərdə qeydə alınmış namizədə, namizədi qeydə alınmış siyasi partiyaya, siyasi partiya bloklarına və digər seçki subyektlərinə öz seçki platformalarını bəyan etmək imkanlarını yaradır. Seçki Məcəlləsində isə bu imkan seçkiqabağı təşviqat hüququ olaraq müəyyən edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 11-ci maddəsi seçkiqabağı hüququ müəyyənləşdirir. Qanunun bu maddəsində birbaşa olaraq qeyd olunur ki, dövlət Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq, vətəndaşlara və siyasi partiyalara öz seçkiqabağı təşviqatını aparması üçün şərait yaradılmasını təmin edir. Həmin maddənin digər bəndində bildirilir ki, vətəndaşın, konkretləşdirsək, qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyanın seçiciləri seçkilərdə iştirak etməyə, yaxud etməməyə çağıran, özünün yaxud alternativinin lehinə və ya əleyhinə səs verməyə, yaxud səs verməməyə çağırışlar formasında seçkiqabağı təşviqat aparmaq hüququ vardır.

Seçki Məcəlləsinin 11-ci maddəsinin 3-cü bəndi, eləcə də həmin qanunun 74-86-cı maddələrinə görə dövlət namizədə, namizədi qeydə alınmış siyasi partiyalara seçkiqabağı təşviqat aparılması üçün mediadan bərabər istifadə şərtlərini müəyyənləşdirir.

Seçkiqabağı təşviqat aparılmasının əsas prinsiplərini, ana xəttini Konstitusiyanın 47-ci maddəsi müəyyənləşdirir. Fikir və söz azadlığı adlanan bu maddənin 1-ci bəndi hər kəsin fikir və söz azadlığını təsbit edir. Həmin maddənin 2-ci bəndində qeyd olunur ki, heç kəs öz fikir və əqidəsini açıqlamağa və ya öz fikir və əqidəsindən dönməyə məcbur edilə bilməz.

Lakin nəzərə almaq lazımdır ki, demokratik dəyərlərin daşıyıcısı olmaq, fikir və söz azadlığı sərhədsiz davranış demək deyildir. Demokratiya dövlət və cəmiyyət həyatını tənzimləyən qanunların əsas dəyər kimi, həyat tərzimizin və fəaliyyətimizin tənzimləyicisi kimi qəbul edilməsidir. Məhz bu baxımdan Konstitusiyanın 47-ci maddəsinin 3-cü bəndi fikir və söz azadlığından sui-istifadənin yolverilməzliyinə bir çağırış kimi də qeyd oluna bilər. Həmin bənddə qeyd olunur ki, irqi, milli, dini, sosial meyarlara əsaslanan ədalət və düşmənçilik yaradan təşviqata və təbliğata yol verilməməlidir.

Konstitusiyanın prinsip və tələbləri ana xətt olmaqla bərabər, seçkiqabağı təşviqatın aparılması Azərbaycan Respublikası Seçki Məcəlləsi, Media haqqında Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə tənzimlənir. Xüsusilə qeyd etmək lazımdır ki, Mərkəzi Seçki Komissiyası tərəfindən sadaladığımız qanunvericilik aktları əsasında seçkilərin hazırlanıb keçirilməsini, eləcə də seçkiqabağı təşviqatın aparılması qaydalarını müəyyən edən normativ xarakterli aktlar – Təlimatlar toplusu və digər izahedici sənədlər işlənib hazırlanmışdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Mərkəzi Seçki Komissiyası tərəfindən ərsəyə gətirilmiş və təsdiq edilmiş bu sənədlər seçkiqabağı təşviqatda iştirak edən hər bir subyekt üçün ən yaxın dost, yol xəritəsi ola bilər.

Seçkiqabağı təşviqatın həyata keçirilməsi Seçki Məcəlləsinin 13-cü fəslində öz əksini tapmış normalarla tənzimlənir. Seçki Məcəlləsinin 74-88-ci maddələrini əhatə edən bu fəsildə seçkiqabağı təşviqatın aparılması qaydaları, seçkiqabağı təşviqatın subyektləri, aparılması müddəti, medianın hüquq və vəzifələri öz əksini tapmışdır. Orada, həmçinin mediada seçkiqabağı təşviqatın ödənişsiz və ödənişli əsaslarla aparılmasının prinsipləri, televiziya və radioda ödənişli və ödənişsiz seçkiqabağı təşviqat materiallarının verilməsinə dair tələblər, dövri nəşrlər vasitəsilə seçkiqabağı təşviqatın aparılmasına dair tələblər, kütləvi tədbirlər vasitəsilə təşviqatın aparılma şərtləri, çap, audiovizual materiallarının buraxılışı və yayılması şərtləri də göstərilmişdir.

Seçki praktikasından bəllidir ki, seçki subyektləri hər zaman media vasitəsilə seçkiqabağı təşviqat aparılmasına daha çox üstünlük verirlər. Təbii ki bu da səbəbsiz deyildir. Hər kəs öz fəaliyyətinin daha çox effektiv olmasında maraqlıdır. Məhz bu effektivlilik baxımından, öz fikir və baxışlarını daha geniş auditoriyaya çatdırmaq baxımından maraqlı tərəflər daha çox media vasitəsilə seçkiqabağı təşviqata üstünlük verirlər.

Seçki Məcəlləsinin müvafiq maddəsində seçkiqabağı təşviqatın subyektlərinin prezident, parlament, bələdiyyə seçkiləri və referendumda konkret təsnifatı öz əksini tapmışdır. Qanunvericiliyə görə, seçkiqabağı təşviqat subyektləri qeydə alınmış namizədlər, namizədi qeydə alınmış siyasi partiya və siyasi partiya bloklarıdır. Yəni, bu sadaladığımız subyektlər seçkiqabağı təşviqatda bu məqsədlə qanunda müəyyən edilmiş qaydada iştirak edə bilərlər.

Qeydə alınmış namizədlər, onların vəkil edilmiş şəxsləri, siyasi partiyaların vəkil edilmiş şəxsləri və səlahiyyətli nümayəndələri seçki komissiyalarında həyata keçirilən bütün seçki hərəkətlərini müşahidə edə bilərlər. Bu şəxslərin seçki komissiyalarından əlavə icazə almaları və müşahidəçi qismində qeydiyyatdan keçmələri tələb olunmur. Bu şəxslər seçki sənədləri ilə iş aparılan yerə və ya səslərin hesablandığı yerə sərbəst daxil ola bilərlər.

Media subyektlərinin nümayəndələrinin seçki komissiyalarının iclaslarında iştirak etmək, səsvermənin gedişatı ilə bağlı prosesləri, eləcə də səslərin sayılması və hesablanması prosesini izləmək hüququ vardır.

Media subyektlərinin nümayəndələri seçici siyahıları ilə tanış ola və istədiyi vaxt seçki məntəqəsinin səsvermə otağına daxil ola və seçicilərə seçki bülletenlərinin verilməsini müşahidə edə bilərlər. Həmçinin, səsvermə yerindən kənarda seçicilərin səsverməsini izləyə bilərlər.

Seçkiqabağı təşviqat subyektləri seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək, müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə edilməsini tələb etmək, seçkilərin yekunları haqqında seçki komissiyasının protokolu və digər sənədlərlə tanış olmaq, səsvermənin təşkili ilə bağlı irad və təkliflərlə seçki komissiyasının sədrinə, onu əvəz edən şəxsə müraciət etmək, səsvermənin yekununa dair protokolun bir nüsxəsini haqq ödənilmədən əldə etmək, əlavə nüsxələri MSK tərəfindən müəyyən edilmiş miqdarda haqq ödənilməklə çıxarmaq və ya almaq, müvafiq seçki komissiyasında səslərin təkrar hesablanmasını müşahidə etmək və sair hüquqlara malikdirlər.

Seçki Məcəlləsi media subyektlərinin nümayəndələrinin geniş hüquqlarını tanıdığı kimi onların vəzifələrini və məsuliyyətini də müəyyən etmişdir.

Seçki Məcəlləsinin 42.3-cü maddəsinin tələblərinə görə media subyektlərinin nümayəndələri seçiciyə seçki bülleteni verə bilməz. Media subyektlərinin nümayəndələri seçiciyə necə səs verəcəyi, yaxud necə səs verdiyi barədə sual verə bilməz.

Media subyektlərinin nümayəndələri seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması barədə imza edə bilməz. Media subyektlərinin nümayəndələri seçicinin xahişi ilə seçki bülletenini doldura bilməz.

Seçkiqabağı təşviqat subyektlərinin nümayəndələri seçki komissiyasının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak edə bilməzlər.

Media subyektlərinin nümayəndələri seçicilər arasında təşviqat apara bilməz, eləcə də seçki komissiyasının işinə maneçilik törədən hərəkətlərə yol verməməlidir. Media subyektlərinin nümayəndələri seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etməməlidir. Bu şəxslər öz statusları ilə bağlı suallar istisna olmaqla, seçicilərin digər suallarına cavab verməməlidir.

Media subyektlərinin nümayəndələri seçkiqabağı təşviqat materiallarının yayılmasına mane olmamalı, namizədin, siyasi partiyaların seçki kampaniyalarına müdaxilə etməməli, seçicilərin öz iradəsini sərbəst ifadə edə bilməsinə mane olmamalı, səlahiyyətli şəxslərə, müşahidəçilərə hörmət bəsləməli, seçki komissiyalarının fəaliyyətinə əsassız müdaxilə etməməli, seçicilərə mükafat, hədiyyə və s. vədlər verməməli, dövlət, bələdiyyə resurslarından Seçki Məcəlləsində nəzərdə tutulmamış hallarda istifadə etməməlidir.

Seçki Məcəlləsinin 88-ci maddəsi seçkiqabağı təşviqatı apararkən sui-istifadə hallarına yol verilməməsini nəzərdə tutmuşdur. Nəzərə almaq lazımdır ki, qanunvericiliyin bu tələblərinə riayət edilməməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə və Mülki Məcəlləyə müvafiq olaraq məsuliyyət yaradır.

***Hüseyn PAŞAYEV,***
***Mərkəzi Seçki Komissiyasının üzvü***

**Növbədənkənar parlament seçkiləri ilə əlaqədar mərkəzdə yaradılan şəraitlə yaxından tanış olan MSK sədri Məzahir Pənahov Müstəqil Media Mərkəzinin uzun illərdir mütəmadi şəkildə fəaliyyət göstərən və effektivliyi ilə öz təsdiqini tapmış uğurlu layihə olduğunu bildirib.**

O, yerli və beynəlxalq media nümayəndələrinin Milli Məclisə seçkilərlə bağlı azad, sərbəst və asanlıqla məlumat əldə edə bilmələrinin, eynilə digər seçki subyektlərinə də daha keyfiyyətli və səmərəli xidmət göstərilməsinin zəruriliyini diqqətə çatdırıb. Mərkəzin təkmil fəaliyyətinə dair tövsiyələrini bildirən M.Pənahov qeyd edib ki, layihənin başlıca məqsədi seçkilərdə aşkarlığın və şəffaflığın yüksək səviyyədə təmin edilməsində əhəmiyyətli rol oynayan yerli və beynəlxalq media nümayəndələrinə daha geniş imkanlar təmin etməkdir.

# "Seçki-2024" Müstəqil Media Mərkəzi uğurlu layihədir





Tanışlıqdan sonra MSK sədri həm Müstəqil Media Mərkəzinin fəaliyyəti, həm də Milli Məclisə seçkilərə hazırlıqların gedişi barədə media mənsublarına açıqlama verib, jurnalistlərin suallarını cavablandırıb.

Müstəqil Media Mərkəzi qarşıdan gələn seçkiləri hərtərəfli, operativ və obyektiv işıqlandırmaqda, o cümlədən məlumatları almaqda və dərhal ictimailəşdirməkdə yerli və beynəlxalq media nümayəndələrinə yardımçı olacaq. Media mənsubları müasir informasiya-kommunikasiya texnologiyaları və zəruri texniki avadanlıqlarla tam təchiz olunan mərkəzdən sərbəst istifadə edə bilərlər.

Müstəqil Media Mərkəzinin internet səhifəsi (www.secki-2024.az) Milli Məclisə seçkilərlə bağlı müntəzəm olaraq Azərbaycan, ingilis və rus dillərində ən son məlumatları təqdim edir. Seçki prosesinə dair müxtəlif məsələlər barədə səlahiyyətli şəxslərin və ekspertlərin rəyləri, açıqlama və bəyanatlar dərhal ictimailəşdirilir, foto və videogörüntülər paylaşılır.

*XQ*

# Qubada dəyirmi masa

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (ombudsman) Aparatının və Mərkəzi Seçki Komissiyasının (MSK) birgə təşkilatçılığı ilə Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar "Vətəndaşların seçki hüququnun təmin olunması" mövzusunda növbəti dəyirmi masa Qubada təşkil olunub.**



Tədbirdə çıxış edən MSK üzvü Hüseyn Paşayev Milli Məclisə növbədənkənar seçkilər ərəfəsində keçirilən maarifləndirmə tədbirlərindən bəhs edib, ali seçki qurumu ilə Ombudsman aparatının birgə təşkil etdiyi tədbirlərin əhəmiyyətindən danışıb. Komissiyanın üzvü MSK tərəfindən görülmüş işlər, eləcə də təşkil edilməsi planlaşdırılan tədbirlər barədə ətraflı məlumat verib, bu cür tədbirlərin davamlı olduğunu diqqətə çatdırıb.

Ombudsman aparatının rəhbəri Aydın Səfixanlı ölkədə vətəndaşların aktiv və passiv seçki hüquqlarının daha səmərəli təmin olunması istiqamətində həyata keçirilən kompleks tədbirlərdən, müşahidəçilik institutunun əhəmiyyətindən bəhs edib. O, ötən illərin müsbət təcrübəsinə uyğun olaraq, müvəkkilin və təsisat əməkdaşlarının özlərinin təşəbbüsü ilə növbədənkənar parlament seçkilərində müşahidə aparacaqlarını bildirib.

Sonra MSK Katibliyinin media və kommunikasiya şöbəsinin böyük məsləhətçisi Rüstəm Babayev görülən işlərdən, seçicilərin seçki hüquqlarını sərbəst şəkildə həyata keçirməsi üçün yaradılan imkanlardan, eləcə də seçki prosesində media subyektlərinin vəzifələrindən danışıb.

Məclisdə mövzu üzrə müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*XQ*

# Dövlətin milli təhlükəsizlik strategiyası

**II MƏQALƏ**

**Siz heç zaman təslim olmayan insana qalib gələ bilməzsiniz.**

**Beyb RUD**

## "3+3" formatı və regional proseslər

Aydındır ki, müstəqil dövlətin strateji inkişaf kursu ilə dövlətin milli təhlükəsizliyinin təminatı arasındakı sıx bağlılıq fonunda regional miqyasda özünü göstərən geosiyasi-hərbi proseslərin məzmunu aktualdır. İndiki mərhələdə Cənubi Qafqazda böyük güclərin fəaliyyəti bu baxımdan inkişafla təhlükəsizliyin münasibətlərinə yeni məzmun çalarları verir. Biz I məqalədə Türkiyənin bu prosesdə tutduğu mövqe və oynadığı rol haqqında yazmışıq. Bununla yanaşı, Rusiya və İranın da yeni şəraitdə fəaliyyəti əhəmiyyətlidir.

Qısa desək, hər iki böyük dövlət kifayət qədər fəal və nəticəverici mövqe tutmamışlar. Sözdə Moskva və Tehran regionda kənar qüvvələrin iştirakını qəbul etmədiklərini təkrar-təkrar bəyan edirlər. Bunun üçün hərdənbir Ermənistan rəhbərliyini çağırıb danlayırlar da. Rusiya və İran Cənubi Qafqazda "qırmızı xətləri"nin mövcudluğunu və bunun keçilməsinə izin verməyəcəklərini dəfələrlə bəyan etmişlər. Lakin bu gün Cənubi Qafqazda baş verənlər bu bəyanatlarla, nədənsə, düz gəlmir və İranla Rusiya buna qarşı aktiv mövqe nümayiş etdirmirlər. Bu, düşündürücüdür, çünki geniş anlamda söhbət "3+3" təhlükəsizlik formatının taleyindən gedir. Nəyə görə, Rusiya və İran maraqlarında olduqları bu formatı aktiv müdafiə etmirlər? Və ya Ermənistanı real olaraq ona qoşulmağa dəvət etmirlər ("məcbur etmirlər" yazmırıq)?

Əslində, son zamanlar Moskva və Tehranın yadına bu format, deyəsən, heç düşmür. Bunun fonunda isə Qərbin regiona müdaxiləsi getdikcə artır və keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Yerli dövlətlərin maraqlarını nəzərə almadan bu hərəkətlilik həm stabil inkişaf kursuna, həm də milli təhlükəsizliyə risklər yaradır. Bu səbəbdən, məsələyə inkişafla təhlükəsizliyin vəhdəti prizmasında bir neçə aspektdən nəzər salmaq lazım gəlir.

## Oyun, yoxsa zəiflik?

ABŞ-nin Cənubi Qafqaza daha intensiv müdaxiləsi fonunda yerli dövlətlərin necə davranmaları maraqlıdır. Rusiya bir rəsmisini İrana göndərdi və o, sonra Bakıya gəldi. Paralel olaraq XİN sözçüsü M.Zaxarova yenə də ermənilərə "öyüd" verdi. Dediklərindən belə məlum oldu ki, əsrlərdir Rusiya və Ermənistan qardaşlıqdan da yüksək yaxındırlar (bunun konkret məzmunu nədən ibarətdir, bilmirik). Bir qədər əvvəl isə Moskva deyirdi ki, "Ermənistan mövcud olmasında Rusiyaya borcludur". Bu mənada Moskva nə desə, İrəvan ona uymalıdır. Buna "qardaşlıqdan da yüksək yaxınlıq" deyilirsə, geosiyasi və hüquqi baxımdan ziddiyyət qaçılmazdır. Bəlkə elə buna görədir ki, Rusiya sərhədçilərinin "Zvartnosu" tərk etmələri həmin ziddiyyətin əlamətlərindən biri kimi qəbul edilməlidir. Bundan başqa, Rusiya nədənsə ciddi müqavimət göstərmədən Ermənistan sərhədlərinin bir qismini də tərk edir.

Bunun fonunda yaranan boşluğu isə uzaq Amerika doldurur. Son informasiyalar daha düşündürücüdür. Artıq məhdud ABŞ hərbi kontingentinin Zəngəzura yerləşdirildiyi haqqında informasiyalar vardır. Avropa İttifaqının "mülki missiyası" isə yenə də Azərbaycan sərhədlərində görünməyə başlamışdır. Bunlar onu ifadə edir ki, bəzi ABŞ olmaqla Qərb Cənubi Qafqazda geosiyasi-hərbi varlığını yeni səviyyəyə qaldırmışdır. İndi qərbi əsgərlər fiziki olaraq bu regionda mövcuddurlar. Təhlükəsizlik baxımından bu vəziyyət bir neçə istiqamətdə risklidir.

Birincisi, Rusiya, Azərbaycan və Ermənistan arasında məlum 2020-ci il 10 noyabr Bəyanatının müddəalarına ziddir. Lakin Rusiya bunu xatırlatmır və səsini çıxarmır.

İkincisi, Azərbaycanın tarixi qələbəsi nəticəsində regionda formalaşmış geosiyasi nizama təhdiddir. Çünki regionda əlavə hərbi güc yerləşmiş olur. Bu hərbi güc Cənubi Qafqazın yeni konstruktiv tarixi-geosiyasi transfomasiyasının ruhuna uyğun mövqe tutmur. Onun əsas məqsədi situasiyanı Ermənistanın xeyrinə dəyişməkdir ki, bunun sonucu konfrontasiyadır.

Üçüncüsü, İranın dəfələrlə bəyan etdiyi prinsiplərə heç uyğun deyildir. Əksinə, İran sərhədinə düşməni olan (ona İran rəsmiləri "böyük şeytan" da deyirlər) amerikanlar gəlmişlər. İndiki gərgin bir vəziyyətdə bu, İranın milli təhlükəsizliyinə ciddi təhdiddir.

Deməli, söhbət həm də Rusiya və İranın milli təhlükəsizliyinə təhdiddən getməlidir. Qərbin fəallaşdığı və Rusiya ilə İranın passivliyi fonunda regionda yeni, maraqlı, lakin riskli bir geosiyasi situasiya yaranır.

## Təşəbbüs Azərbaycana keçir?

Regionda ümumi geosiyasi mənzərə belədir: Rusiya və İran passiv, Ermənistan qeyri-müəyyən oyuncaq, Gürcüstan daxili işləri ilə məşğul olan güclü olmayan dövlət və fəal Türkiyə–Azərbaycan tandemi! Bunun fonunda "3+3" formatına, strateji inkişaf kursuna və milli təhlükəsizliyə yaranmış təhdidlər.

Belə vəziyyətdə uğura apara biləcək siyasi-diplomatik yol nədən ibarət ola bilər? Çox əhəmiyyətlidir ki, Azərbaycan



Prezidenti kifayət qədər çevikliklə fəaliyyət istiqamətini inkişafla təhlükəsizliyin qarşılıqlı əlaqəsində müəyyən etdi. Azərbaycan regiona sabitliklə təhlükəsizliyi təmin etmənin təşəbbüsünü ələ aldı. Bunun əlamətləri nədən ibarətdir?

## Strateji konstruktivlik

Azərbaycan nə rəqabət, nə də passivlik yolunu seçdi. Rəsmi Bakı region dövlətlərinin maraqlarını təmin edən, lakin heç bir böyük gücə qarşı olmayan kursu yeni səviyyəyə yüksəltməkdədir. Onun başlıca əlaməti Prezident İlham Əliyevin regional əməkdaşlıq və təhlükəsizlik arxitekturasını beynəlxalq hüquq normalarına uyğun qurmaqda davam etməsindədir. Bu, Azərbaycanın inkişafı ilə milli təhlükəsizliyini uyğunlaşdıran və ölkəni daim inkişaf paradiqması çərçivəsində saxlayan başlıca faktordur!

Birincisi, ABŞ-nin Zəngəzurda peyda olmasına rəsmi Bakı çox təmkinli, lakin fəal mövqe tutmaqla yanaşdı. Bəyan edildi ki, regionda hər hansı təxribatçı dəyişikliyə imkan verilməyəcəkdir. Ermənistan da öz hesabını götürməlidir.

İkincisi, Ermənistan Azərbaycanın konstitusiya ilə bağlı tələbinə əməl etməsə, sülh müqaviləsi imzalanmayacaq və onun uzanması ilk növbədə İrəvanın ziyanına olacaq. Azərbaycan 2027-ci ili də gözləyə bilər. Bu, o deməkdir ki, rəsmi Bakı Zəngəzurda amerikan hərbçilərinin olmasını qarşısında manеə kimi görmür. Sadəcə, sülh prosesini uzadan lazımsız addım olaraq qiymətləndirir.

Üçüncüsü, Azərbaycan "3+3" formatından imtina etmir və yenə də Cənubi Qafqazda region dövlətlərinin geosiyasi konfiqurasiyasına üstünlük verir. Heç bir proses Bakını bu mövqeyindən döndərə bilməz. Onun əlamətləri Azərbaycan rəhbərliyinin ən böhranlı vəziyyətdə belə İranla münasibətlərin inkişafına çalışdığını nümayiş etdirməsində və Bakıda S.Şoyqu ilə danışıqlarda Rusiya ilə strateji tərəfdaşlıq Bəyannaməsinə sadiq qalmaqda davam etdiyini ifadə etməsində gördük. Azərbaycan rəhbərliyi şimal qonşusu ilə əlaqələri bütün istiqamətlərdə inkişaf etdirmək qətiyyətini nümayiş etdirdi. Sözün həqiqi mənasında, "Azərbaycan–Rusiya münasibətləri regionun bəzi dövlətləri üçün nümunə ola bilər" (İlham Əliyev).

Vurğuladığımız məqamlardan belə bir nəticə alınır: Azərbaycan real olaraq regional inkişaf, əməkdaşlıq və təhlükəsizliyin əsas qarantına çevrilmişdir. Bakı faktiki olaraq Tehran və Moskvanı konstruktiv geosiyasi əməkdaşlıq platformasına dəvət edir. Rusiya və İranın əvvəlki regional möhtəşəmliyi kölgədə qalmış kimi görünür. İndi Azərbaycan onları istiqamətləndirir. Eyni zamanda, birmənalı olaraq Ermənistan və Gürcüstana nümunə olur. Cənubi Qafqazı sabit və təhlükəsiz etmək üçün real addımlar atmaq aspektində də dərs verir.

Məsələnin başqa, bir çox mühüm cəhəti də vardır.

## Regionlararası kontekstə transformasiya

Azərbaycan rəhbərliyi regionda yaranmış bu cür gərgin vəziyyətin fonunda regionlararası geosiyasi məkanda əməkdaşlığın inkişafını sürətləndirir. Konkret olaraq, İlham Əliyev Mərkəzi Asiya dövlətlərinin "5+1" formatında iştirak edərək, Türk Dövlətləri Təşkilatında əməkdaşlığı növbəti səviyyəyə yüksəltməyə çalışır. Bura qarşılıqlı əlaqələrin bütün istiqamətləri – siyasi, geosiyasi, iqtisadi, energetik, hərbi müdafiə, təhlükəsizlik, nəqliyyat-loqistika, informasiya daxildir. Azərbaycan Prezidentinin bu addımının məhz Cənubi Qafqaz da daxil olmaqla regionlararası məkanda təhlükəsizliyin təmini məsələsinin aktuallaşması fonunda son dərəcə səmərəli olduğunu anlamaq lazımdır.

Məsələ ondan ibarətdir ki, böyük güclər Mərkəzi Asiya uğrunda daha kəskin geosiyasi mübarizəyə başlamışlar. Almaniyanın Prezidenti Ştaynmayer və ABŞ-nin rəsmisi Obrayn həmin regiona səfərləri zamanı əməkdaşlığı birbaşa təhlükəsizliklə əlaqələndirmişlər. Onlar Mərkəzi Asiyanın təbii resurslarının Qərbə nəqlinin geosiyasi mahiyyətli proses olduğunu izah etmişlər. Belə ki, bu nəql Rusiya və Çindən yan keçməlidir!

Deməli, Qərb məsələni faktiki olaraq enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin sıx bağlılığında təqdim edir və yalnız öz şəxsi maraqlarına cavab verən variantı irəli sürür. Bu reallıq fonunda TDT-nin təsirli addım atması, sadəcə, zamanın tələbidir! Azərbaycan Prezidentinin Astanaya səfəri bu baxımdan inkişafla təhlükəsizliyin qovşağında uğurlu addım təsiri bağışlayır. Bunlardan strateji xarakterli bir qənaət alınır:

## TDT amilini Azərbaycan aktuallaşdırır

Aparılan təhlil göstərir ki, Cənubi Qafqazda strateji inkişafla təhlükəsizliyin sinxron təminatı məsələsi geosiyasi güclərin konfiqurasiyasında növbəti yeniliyi zəruri etməkdədir. Yəni ənənəvi böyük güclərin münasibətlərinin tənzimlənməsi modeli artıq keçərli deyildir. Onlar, sadəcə olaraq, buna qadir deyillər. Ortaq konstruktiv mövqeləri yoxdur və ya onu yaratmaq istəmirlər. Ona görə də burada "yeni nəfəs", "konstruktiv ab-hava" gətirə biləcək yeni güc gərəkdir. Həmin güc isə Türk Dövlətləri Təşkilatıdır (TDT).

Azərbaycan Prezidenti II Şuşa Qlobal Forumunda açıq ifadə etmişdir ki, TDT dünya miqyasında söz sahibi olan geosiyasi gücə çevrilməlidir və bunun üçün onun imkanları mövcuddur! Bu imkanların reallaşmasına məhz İlham Əliyev yeni mərhələdə başlamışdır. Astana səfəri onu təsdiq edən faktlardan biridir.

Buradan straeji inkişaf paradiqması çərçivəsində ölkənin tərəqqisi ilə milli təhlükəsizliyin sinxronlaşmasının Azərbaycan nümunəsini alırıq.: daxili inkişaf sinerjisini regional liderliyə proyeksiya etməklə multiregional məkanda yeni geosiyasi konfiqurasiyanı Türk Dövlətləri Təşkilatı nümunəsində yaratmaq! Bu zaman başlıca fəaliyyət metodu qarşılıqlı faydalı əməkdaşlığa dayanaraq, heç bir böyük güclə rəqabətə girməməklə yaradıcı, qurucu, barışcıl, sülhsevər və daim inkişaf qabiliyyəti olan müstəqil geosiyasi gücə çevrilməkdən ibarətdir! Bunu biz strateji inkişaf kursu ilə milli təhlükəsizliyin uğurlu vəhdətinin İlham Əliyev nümunəsi də adlandıra bilərik!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Erməni irqçilik düşüncəsi gerizəkalıqdan qaynaqlanır

## "Armenizm"in "andranikizm", "tsexakronizm", "erməni fədaizmi", "erməni faşizmi" kimi "izmlər"i bəşəri təhlükə saçır

**(əvvəli qəzetin 7, 8, 9 avqust saylarında)**

### Erməni təbliğatında Njde

Erməncə dərs kitablarının hamısında Njdedən bəhs edilən hissədə onun faşizmi təbliğ edən, onunla öyünən fikri verilir: "Faşizmin varlığı, hitlerizm haqqında bir bilgi yoxkən bu ideologiyanı 1919-da Sünik dağlarında bizim David Bek qisasçıları yaşadırdılar". Həmin dövrdə və daha sonrakı illərdə Njde daşnaklar tərəfindən nəşr olunan "Hayastan" (Plovdiv), "Araks" (Sofiya), "Azatamart" (Paris) kimi müxtəlif jurnal və qəzetlərdə aktiv rol almışdı. Bütün yazılarının tək hədəfi türklər və Türkiyə, Azərbaycan, tək məqsədi də xarici ölkələrə dağılmış ermənilərdə türklərə qarşı genetik bir nifrət meydana gətirmək idi. 1919-cu ilə aid erməncə bu sənədlərdə bütün bunlar var. Azərbaycan və Türkiyəyə, millətimizə genetik nifrət! 9-cu siniflər üçün "Erməni tarixi" kitabında Njde belə təqdim olunur: "Kimlər üçünsə "hərbi cani", bizim üçün isə Ermənistanın xilaskarıdır Garegin Njde..." və kitabın başqa bir yerində Njdenin bu fikirləri çatdırılır: "Kim Türkiyə ilə bərabərsə, o mənim millətimin və bizim tarixi ərazilərimizə sahib olma haqqımızın düşmənidir… Elə bir düşmən ki, onu heç Allah belə mənimlə barışdıra bilməz. Budur mənim siyasi davranış tərzim… "

...İstintaq zamanı Njde Zəngəzur və digər bölgələrdə də törətdiyi cinayətləri də inkar etmişdi. Amma bu cinayətləri törədərkən orada olan öz erməniləri Njdenin qırmızı qvardiyaçılara və türklərə nə qədər vəhşicə, qəddarcasına davrandığının şahidi olmuş və ifadələrində bu saxta erməni "qəhrəmanı" ifşa etmişdilər. Məsələn, şahid Arsen Xoylunts öz ifadəsində onun vəhşiliyini belə ifadə etmişdi:

"1920-ci ilin sonu və 1921-ci ilin əvvəlində Njdenin qərargahının yerləşdiyi Tatev monastırında, onun rəhbərliyi ilə güllələnmə və qayadan diri-diri atılmaqla 400 qırmızı qvardiyaçı rus, kommunist, inqilabi ruhda olan erməni kəndli və fəhlələri öldürülmüşdür. 1921-ci ilin iyulunda Zəngəzurda sovet hakimiyyəti elan olunandan və daşnak orduları ləğv olunandan sonra mən rayon partiya komitəsinin Tatev sahəsinin katibi təyin edildim. Mənim şəxsi rəhbərliyimlə cənazələr toplanaraq dəfn edildi. Təxminən 400-ə yaxın cəsəd toplanmışdı".

Digər bir şahid Canunts Avak isə ifadəsində təsdiq etmişdi:

"...1920-ci ildə Njde Dro Kanayanla birlikdə 100-dən çox Qubadlı rayonunun azərbaycanlı kəndini talan etdi. Talandan sonra bu kəndlər Njde və Dro tərəfindən yandırılmış və məhv edilmişdir. Bu kəndlərin ən böyüyü Şornuxi və başqaları idi.

İrana qaçarkən Njde əmr etdi ki, Zəngəzurdakı bütün kommunistlərin əmlakı müsadirə edilsin. Tabeçiliyindəkilər bunu icra etdilər".

Njdenin əldə yazılı olan bir ultimatumu var. Ermənistan siyasi tarix arxivində saxlanılır. 27 sentyabr 1920 tarixli sənəd. Orada deyilir: "Türkləri və rusları mən elə bir zövqlə öldürürəm ki, sanki onları döyüşdə və göylərdə məhv edirəm!". Belə bir cinayətkar Ermənistanda qəhrəman səviyyəsinə qaldırılmış, onun heykəli ucaldılmışdır. Buna, hətta, Rusiya dövlət səviyyəsində etiraz etsə də, ermənilərdən gələn fikir budur ki, o, də türklərə qarşı mübarizədə yer almaq məqsədilə Almaniya ilə əməkdaşlıq etmişdir.

Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Moskvada keçirdiyi brifinqdə İrəvanda Njde abidəsinin qoyulmasına öz dövlətinin etiraz bəyanatını səs-






ləndirmişdi. O, həmçinin xatırlatmışdı ki, 17 dekabr 2015-ci ildə BMT Baş Assambleyasının 70-ci sessiyasında "Müasir irqçiliyin, irqi ayrı–seçkiliyin, ksenofobiyanın və dözümsüzlüyün artmasına səbəb olan faşizmin, neonasizmin və digər etiqadların yayılmasına qarşı mübarizə" adlı qətnamə qəbul edilmişdir. Ermənistan da bu sənədə imza atmışdır. Amma Njdenin "Almaniya üçün ölən Ermənistan üçün ölür" fikri əsas alınaraq Almaniyanın müharibədəki "uğurları" dəstəklənir və ermənilərin Hitlerə hər zaman sadiq olacaqları vurğulanır.

Bu, "Hayastan" adlı qəzetin 1945-ci ilin ilk ayında çıxan nömrəsidir: "Gec-tez "Son Zəfər"dən" (Endsieg) bəhs edilir.

Erməni mətbuat orqanlarında və internet saytlarında türkləri aşağılamaq üçün hər üsuldan istifadə olunur. Aniarc.am erməni saytı türklər haqqında bunları yazır: "Quranda türklər "bəşəriyyətin düşmənləri və heyvanlar" deyə adlandırılır, "onlar insanlığa səfalət gətirən toplumdurlar... Antik ədəbiyyat, bölgənin bütün İslam ədəbiyyatı türklərlə bağlı mənfi fikirlərlə doludur". Bu təbliğat Ermənistanda hər yerdə aparılmışdır və bu gün də davam etdirilməkdədir. Müəllif Tatul Hakopyan isə türkə nifrətin ardınca ermənilərin xəyanətindən də bəhs edir. Amma bu "xəyanət" ermənilərin xilasına səbəb olmuşdur, – deyir. Yaxşı ki, tarixdə ilk erməni dövlətinin yaranmasına türklərin verdikləri töhfəni də gətirirlər. "Çox qəribədir, 1918-ci il iyunun əvvəlində, erməni siyasətçiləri və ilk növbədə Daşnaksütyun partiyası Batumidə Osmanlı İmperiyası ilə dostluq müqaviləsi bağladılar. Ermənistan Respublikasını tanıyan ilk dövlət Osmanlı İmperiyası oldu. Beləliklə, general Andranikin qəzəbinə səbəb olan belə bir barışığa gedildi. Bir çoxları bu hərəkəti xain hərəkət hesab edirdi. Bir neçə ay sonra, Ermənistan nümayəndə heyəti bu tərkibdə – Avetis Aharonyan, Aleksandr Xatisyan və Mixael Papacanov Konstantinopola getdilər və erməni xalqının bir nömrəli düşmənləri iki qatil–Tələt paşa və Ənvər paşa ilə görüşdülər. Sultanla da görüşdülər və türklərin Ermənistan Respublikasının qurulmasına mane olmadığına görə onlara təşəkkür etdilər. Aram Manukyan, Xəlil Kut paşa vasitəsilə ac erməni xalqına çörək gətirdi və şəxsən Yerevan stansiyasında bir türk qatili hörmətlə qucaqlandı".

Levon Ter-Petrosyan 1991-ci ildə Türkiyə ilə dil tapmaq üçün ilk cəhdlərini edərkən, bu dəfə Daşnaksütyun partiyası Üçüncü cümhuriyyətin ilk prezidentini türk yanlısı olmaqda günahlandırdı. Ter-Petrosyan Turqut Özalın dəfn mərasimində iştirak etmək üçün Ankaraya yola düşəndə erməni diasporun mediası Levonu atəşə tutdu: "Çoxları 1992-1993-cü illərin qaranlıq qışı zamanı Ermənistanın Türkiyə üzərindən çörək gətirməsindən şikayətlənirdi. Yeri gəlmişkən, bu çörək türk çörəyi idi, Türkiyənin anbarlarından gətirilmişdi. Anlayıram ki, burada "qonşu" sözünün dilə gətirilməsi bu sətirlərin müəllifini "türk" və ya "xain" olmaqda ittiham etmək şansı verə bilər, amma Türkiyə qonşumuzsa, başımızı hansı divara vura bilərik? Bəli, bu öz-özünü lənətləmək kimi görünə bilər, amma istəsək də, istəməsək də "türk" qonşumuzdur. "Türk" kəlməsi bir erməninin beyninə girən və onun ruhunu qucaqladığı müddətcə Ermənistandan minlərlə kilometr uzaqlıqdakı Türkiyədəki prezidentlərin və siyasətçilərin sərt ifadələrinə sevinməli və kifayətlənməli olacağıq. Bu da bir seçimdir. Nə edə bilərik? Türkiyə sərhədi açmır, diplomatik münasibətlər qurmaq istəmir, digər qonşumuz Azərbaycan eyni hərəkəti edir, həm də Türkiyə Azərbaycanı dəstəkləyir".

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

# Azərbaycan Orta Dəhlizin qovuşdurucu və hərəkətverici ölkəsidir

## Ərazimizdən ildə 80 min konteyner daşınır

**Orta Dəhlizin inkişaf perspektivləri və əsas layihələri ilə bağlı "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının baş katibi Qaydar Abdikərimov ölkə mediasına müsahibəsində bildirib ki, hazırda Mərkəzi Asiya və Qafqaz ölkələri üçün adıçəkilən marşrut mühüm önəm daşıyır.**




Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan "dənizə çıxışı olmayan ölkələr" statusuna malikdir və Gürcüstan vasitəsilə aparılan tranzit Azərbaycana kömək edir, lakin Mərkəzi Asiya ölkələri üçün bu amil əlavə problemlər yaradır. Bütün bu amillər Orta Dəhlizin inkişafında öz izini qoyur. Buna görə də "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası, həqiqətən, bu marşrutun inkişaf etdirilməsinə ehtiyac olduğunu görür. Marşrut çox unikal, tamamilə multimodaldır. Orta Dəhlizi daim böyüyən və inkişaf edən canlı orqanizm hesab etmək olar ki, bu da beynəlxalq nəqliyyat marşrutunun uğurundan xəbər verir.

Baş katibin sözlərinə görə, Mərkəzi Asiya ölkələrinin istehsal və ya istehlak etdiyi malların ixrac-idxal imkanları çox böyükdür. CAREC Proqramı Orta Dəhliz Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri, o cümlədən Azərbaycan vasitəsilə Çindən Avropaya nəqliyyat və tranzit marşrutlarını şaxələndirmək imkanı yaradır.

Marşrutların şaxələndirilməsi ilə yanaşı, Orta Dəhliz Mərkəzi Asiya ölkələri, o cümlədən Qırğızıstan üçün də öz məhsullarını ixrac edə biləcək bir kanal kimi vacibdir. Dəhlizin ötürmə qabiliyyəti hazırda ildə, təxminən, 80 min konteyner təşkil edir, lakin ötürmə qabiliyyətini 111 min konteynerə, gələcəkdə isə 300 min TEU-ya çatdırmaq imkanı var.

Q.Abdikərimov müsahibədə Orta Dəhlizin yüklənməsi ilə bağlı fikirlərini də diqqətə çatdırıb. Bildirib ki, cari ilin birinci yarısının yekunlarına görə, dəhliz, təxminən, 50 faiz yüklənib, yük axını hələ tam dolmayıb və ehtiyatlar var. Bununla bağlı tədbirlər həyata keçirilir və infrastruktur yaxşılaşdırılır. Gələcəkdə yeni çağırışlarla üzləşmək üçün nəqliyyat dəhlizinin imkanlarının təkmilləşdirilməsi istiqamətində birgə işi gücləndirmək lazımdır. Bir sözlə, Orta Dəhliz unikaldır, çünki 2 nəqliyyat hüququ- dəmir yolu və dəniz marşrutları birləşdirilib.

"Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının baş katibi müsahibədə marşrutu təkmilləşdirmək üçün həm "sərt", həm də "yumşaq" infrastruktura investisiya qoymağın zəruriliyini də diqqətə çatdırıb: "Rəqəmsallaşma və tərəflər arasında təkmilləşdirilmiş kommunikasiya kimi "yumşaq" infrastruktura, eləcə də dəmir yolları, limanlar və terminallar kimi "sərt" infrastruktura investisiyalar 2027-ci ilə qədər Orta Dəhliz potensialının maksimum dərəcədə artırılması məqsədlərinə nail olmağa kömək edə bilər".

Müxbirin "Azərbaycan Orta Dəhlizin inkişafına necə töhfə verə bilər" sualına Q.Abdikərimov cavabında qeyd edib ki, Prezident İlham Əliyev ölkənin tranzit-nəqliyyat potensialının inkişafına xüsusi diqqət yetirir. Dövlət başçısının rəhbərliyi ilə Azərbaycan Xəzər dənizində ən böyük beynəlxalq ticarət limanını tikib, Bakı-Tbilisi-Qars dəmir yolunu inşa edib, bütün beynəlxalq istiqamətlərdə nəqliyyat infrastrukturunu yeniləyib.

Respublika Xəzər dənizində ən böyük ticarət donanmasına malikdir. "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası rəsmi Bakının dəstəyini, həqiqətən, hiss edir. Azərbaycan regionun tamhüquqlu tranzit mərkəzinə çevrilir, Orta Dəhlizdə isə əsas dövlətlərdən biridir. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Azərbaycanın qarşısına qoyduğu iqtisadi məqsədlərə nail olmağa xidmət edir. Azərbaycanda həyata keçirilən həmin infrastruktur layihələrindən fəal şəkildə istifadə olunacaq.

Orta Dəhlizin inkişafının diqqətdə saxlanılması bu marşrutun səmərəli fəaliyyətini şərtləndirib. Bu, müvafiq rəsmi göstəricidən də aydın görünür. Belə ki, Çindən Orta Dəhliz ilə cari ilin əvvəlindən iyun ayının sonuna kimi, ümumilikdə, 105 blok qatarı yola salınıb. "Azərbaycan Dəmir Yolları" QSC-nin məlumatına əsasən, son 15 il ərzində ölkəmizdə dəmir yolları ilə yükdaşımaların həcmində böyük artım qeydə alınıb. Bu artımı davamlı etmək üçün mövcud dəmir yolu xətləri yenilənib, eyni zamanda, yeni yollar salınıb.

Xatırladaq ki, 2024-cü ilin mayında Bakı–Tbilisi–Qars dəmir yolunun modernləşdirilməsi başa çatdırılaraq bu marşrutla yükdaşımalara start verilib. Ötürücülük qabiliyyəti 1 milyon tondan 5 milyon tona qədər artırılıb. Şimal-Cənub Nəqliyyat Dəhlizinin inkişafı üzrə may ayında Azərbaycanın Astara rayonunda yük terminalı yenilənərək istifadəyə verilib, yükaşırma potensialının ilin sonuna qədər 1 milyon tona qədər artırılması planlaşdırılıb.

Ümumilikdə, cari ilin yanvar–iyun aylarında 9,3 milyon tondan çox yük daşınıb ki, bunun da 3,9 milyon tona yaxını konteyner yükləri də daxil olmaqla tranzit yükü olub. Tranzit yükdaşımalar ötən illə müqayisədə 8 faizdən çox artıb. Orta Dəhlizin səmərəliliyinin bundan sonra da artmasını şərtləndirən amillər var. Bununla bağlı Dünya Bankının (DB) yaydığı məlumata əsasən, bu maliyyə qurumu Orta Dəhlizin səmərəliliyini yüksəltmək üçün Azərbaycan, Qazaxıstan və Gürcüstana bütün nəqliyyat şəbəkəsi üzrə yüklərin izlənilməsi imkanının təminini tövsiyə edib. Bunun üçün həm dəmir yolu, həm də Xəzər dənizi ilə daşımaları əhatə edən vahid elektron sənəd dövriyyəsinə keçidin gerçəkləşdirilməsi zəruriliyi diqqətə çatdırılıb. Eyni zamanda, logistik qovşaqların yaradılması hesabına yüklərin konsolidasiyası, dəmir yolu nəqliyyatına keçidə yardım göstərilməsi və Şərqlə Qərb arasında yük axınlarının balansının yaxşılaşdırması əhəmiyyəti vurğulanıb. Bundan başqa, yekun nəqliyyat tariflərinin şəffaflığı və bu məsələdə proqnozlaşdırmaya üstünlük verilməsi də önə çəkilib.

DB Azərbaycan və Qazaxıstana dəniz limanında yüklərin daşınma müddətini azaltmağı, Bakı–Aktau və əks istiqamətdə marşrutlar üzrə konteynerlərin həcmlərini artırmağı, konteynerlər üçün yük və liman tariflərini aşağı salmağı da zəruri sayır. Bildirilir ki, Azərbaycan yüklərin gəmilərdən sahilə daşınmasının səmərəliliyini artırmalı, Qazaxıstan isə limanların bağlanması parametrlərini nəzərdən keçirməli və bütün bazar iştirakçıları üçün ayrı-seçkilik olmadan liman xidmətlərinə çıxışı təmin etməlidir. Beynəlxalq maliyyə qurumu, həmçinin Gürcüstanın liman-dəmir yolu və avtomobil daşımalarının səmərəliliyinin artırılacağı, naviqasiya kanalının vəziyyətinin yaxşılaşdırılacağı və konteynerlər üçün liman tariflərinin azaldılacağı təqdirdə Orta Dəhlizin səmərəliliyinin yüksələcəyi əminliyini vurğulayır.

Dəmir yolları və sərhəd-keçid məntəqələrinə gəlincə, DB Qazaxıstan tərəfindən vaqonların sayınının və manevr əməliyyatlarının səmərəliliyinin artırılmasını, Azərbaycan və Gürcüstanın isə bu prosesi əsasən, sərhəd-keçid məntəqələrində həyata keçirmələrini təklif edir. Beynəlxalq maliyyə qurumunun ekspertləri bildirirlər ki, belə addımlar məhdud investisiya nəticəsində də əhəmiyyətli nəticələr verə bilər. Bunlar prioritet, dərhal diqqət tələb olunduğu məsələ kimi nəzərdən keçirilməlidir.

Bank 2030-cu ilə qədər Orta Dəhliz boyunca daşımaların həcminin 2021-ci illə müqayisədə 3 dəfə artacağını və yüklərin daşıma müddətini 2 dəfə azalacağını proqnozlaşdırır. Eyni zamanda, bildirir ki, investisiya və əməliyyat təkmilləşdirmələrinin düzgün kombinasiyası vasitəsilə bu dəhliz transkontinental ticarətin iqtisadi və siyasi davamlılığına əhəmiyyətli töhfə verə bilər. Bundan başqa, sözügedən layihə dəniz limanlarına çıxış vasitəsilə Çinə, Avropaya və dünyanın digər regionlarına etibarlı marşrutu gerçəkləşdirməklə Mərkəzi Asiya və Cənubi Qafqazın potensialının inkişafını şərtləndirir.

Xatırladaq ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub.

Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, "vahid pəncərə" prinsipi tətbiq olunur.

# 51 min ipoteka krediti verilib

**Bu günə qədər İpoteka və Kredit Zəmanət Fondu (İKZF) 51 min borcalana 3 milyard 170 milyon manat kredit verib.**



İKZF-nin açıqlamasında daha sonra bildirilir ki, qurum tərəfindən indiyə qədər 481milyon manat məbləğində biznes kreditlərinə zəmanət verilib, 5272 mənzil isə kirayəyə yolu ilə realizə edilib.

Xatırladaq ki, İKZF 2017-ci ilin sonunda "Azərbaycan İpoteka Fondu" və "Kredit Zəmanət Fondu" ASC-lərin birləşməsi nəticəsində yaradılıb və onların hüquqi varisidir.

Fond milli maliyyə təsisatlarına uzunmüddətli subsidiyalaşdırılmış ipoteka kreditlərinin verilməsi və ucuz maliyyə resurslarına çıxışın təmin edilməsi ilə bağlı likvidlik dəstəyini verən dövlət agenti kimi fəaliyyət göstərir.

# 103 milyon manat ƏDV geri qaytarılıb

**Cari ilin yanvar–iyul ayları ərzində pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən obyektlərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 103 milyon manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.**




Dövlət Vergi Xidmətinin məlumatına əsasə, "ƏDV geri al" layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, ictimai iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib.

Bundan başqa, ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilən ƏDV-nin "ƏDV geri al" layihəsi çərçivəsində qaytarılan həcmi yanvar-iyul aylarında 11 milyon 169,2 min manat təşkil edib.

Bu dövrdə ƏDV ödəyicilərinin sayı da artıb. Cari ilin avqustun 1-nə Azərbaycanda aktiv vergi ödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 2,5 faiz artaraq 780,5 minə çatıb.

Məlumata görə, aktiv ƏDV ödəyicilərinin sayı 49,9 min, aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 209,1 min olub ki, bu da ilin əvvəlinə nisbətən müvafiq olaraq 9,2 faiz və 2,2 faiz çoxdur.

# 100 min yeni kassa aparatı

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən ölkədə yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi istiqamətində işlər davam etdirilir.**



Dövlət Vergi Xidmətindən redaksiyamıza daxil olan məlumata görə, indiyədək ölkə ərazisində 99 min 690 ədəd yeni nəsil NKA quraşdırılıb. Yeni nəsil NKA-dan istifadə hesablaşmaların daha şəffaf aparılmasına, malların qanunsuz dövriyyəsinin qarşısının alınmasına və dövriyyəyə nəzarətin təmin edilməsinə imkan yaradıb.

Bu ilin yanvar-iyul ayları ərzində belə NKA-lar vasitəsilə qeydə alınan dövriyyə 12 milyard 271 milyon manatdan artıq olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 milyard manat, yaxud 10,1 faiz çoxdur.

# Sosial sığortadan daxilolmalar – 305 milyon manat

**Dövlət Vergi Xidmətinin məlumatına görə, muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində cari ilin yanvar–iyul ayları ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 3,3 milyard manata çatıb.**



Bildirilib ki, bu mənbədən daxilolmalar əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,2 faiz və ya 305,2 milyon manata yaxın artıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 2023-cü ilin eyni dövrünə nisbətən 13,1 faiz artaraq 2,1 milyard manatdan çox olub.

İşsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 12,4 faiz artaraq 118,2 milyon manat təşkil edib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 15,2 faiz artıb və 88,2 milyon manatdan çox olub.

İcbari tibbi sığorta haqları üzrə daxilolmalar isə 2023-cü ilin yanvar-iyul aylarına nisbətən 8 faiz artaraq 578,9 milyon manata çatıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 9,2 faiz artıb və 406,5 milyon manatdan çox olub.

# Türkiyə şirkəti Ağdam Sənaye Parkına qoşulur


DÜNYA

Dağlık Karabağ'a 200 milyon liralık Türk yatırımı

Kerim ÜLKER
Perde Arkası

07 Ağustos 2024 Çarşamba

Enerji zengini Azerbaycan, işgalden kurtarılan Dağlık Karabağ'daki ekonomiyi Ağdam Endüstri Parkı ile güçlendirmek istiyor. Türk şirketlerinin ilgilendiği bölgeye son yatırım, mutfak eşyaları üreticisi Asilsoy'dan geldi. Asilsoy, 200 milyon liralık yatırım yapacak.

Kardeş ülke Azerbaycan, tıpkı Körfez Bölgesi'nde olduğu gibi enerjiye bağımlı olan ekonomiyi sanayi, turizm gibi alanlarla güçlendirmek için son birkaç yıl içinde önemli açılımlar yaptı.

asela İnformasiya portalı

**Türkiyənin aparıcı mətbəx ləvazimatı istehsal edən şirkətlərindən biri olan "Asilsoy" Ağdam Sənaye Parkına 200 milyon türk lirəsi (təxminən 6 milyon ABŞ dolları) investisiya qoymağı planlaşdırır.**

Qardaş ölkənin "Dünya" qəzetinin yaydığı məlumata əsasən, şirkətin məqsədi Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında iqtisadiyyatın bərpasına töhfə verməkdir.

Nəşr 2021-ci ildən 190 hektar sahədə fəaliyyət göstərən Ağdam Sənaye Parkının potensialına diqqət çəkir. "Azərbaycanın Qarabağ iqtisadi rayonundakı bu sənaye parkına investisiyaların həcmi 115 milyon dollara çatıb. Burada 1700 nəfər işlə təmin olunub", - deyə qəzet Zəngəzur dəhlizinin açılması ilə Ağdam rayonunda parkın əhəmiyyətinin daha da artacağını qeyd edir.

"Dünya"ya görə, ilkin mərhələdə şirkət Ağdam Sənaye Parkındakı istehsalatda 100 mütəxəssisi işlə təmin etməyi planlaşdırır. "Asilsoy" Azərbaycanda "Karaca" və "Schafer" kimi məşhur brendlərin mətbəx ləvazimatının istehsalını qurmağı planlaşdırır.

Türkiyə şirkəti vurğulayıb ki, əsas diqqət Azərbaycandan məhsulların ixracına yönəldiləcək.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# “Yaşıl dünya” naminə həmrəylik



# Qlobal fəlakəti “yaşıl” ideyalar dəf edəcək



**Bu ilin noyabr ayında Azərbaycanda dünyanın ən irimiqyaslı tədbirlərindən biri – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 keçiriləcək. Bununla da respublikamız həm COP29-a evsahibliyi etməsi, həm də enerji siyasətindəki uğurları və proseslərə diplomatik yanaşması ilə bir daha böhrandan həllə gedən yolda mühüm rol oynayan dövlət adını alması faktını təsdiqləyəcək.**

Ölkəmizin COP29-a evsahibliyi etməsi respublikamızın beynəlxalq nüfuzu baxımından da mühüm önəm daşıyır, Azərbaycan baş verən iqlim dəyişikliyi proseslərinə müşahidəçi yox, iştirakçı kimi qoşulmasını dünyaya bir daha nümayiş etdirir. Şübhəsiz ki, bununla bağlı məsuliyyətli məsələləri də ölkəmiz uğurla həll etməyə qadirdir.

Azərbaycanın enerji siyasətindəki uğurları, bərpaolunan enerji resurslarına sərmayə qoymaq istəyi və iqlim dəyişikliyi ilə mübarizə əzmi respublikamızın davamlı gələcək üçün atdığı addımların təzahürüdür. Beynəlxalq aləm respublikamızın bu platformada liderliyi gerçəkləşdirməsi ilə dünyada iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin yaradılmasına töhfə verəcəyinə də əmindir.

Bütün yuxarıda qeyd edilənləri ümumiləşdirib əminliklə deyə bilərik ki, COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin “yaşıl enerji”yə keçidinin sürətlənməsinə və bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığının daha da inkişafına təkan verəcək.

Azərbaycanın “yaşıl inkişaf”ına nail olmaq məqsədilə qısa müddətdə enerji sahəsində yeni qanunvericilik bazası yaradılıb, elektrik enerjisində bərpaolunan enerjinin payının artırılması və neft-qaz əməliyyatlarının, o cümlədən Səngəçal terminalının karbonsuzlaşdırılması üçün 2027-ci ilədək 8 sənaye miqyaslı elektrik stansiyasının istismara veriləcəyi nəzərdə tutulub. Həmçinin Xəzər dənizinin 157 qiqavat külək enerjisi potensialı əsasında “yaşıl elektrik enerjisi” və “yaşıl qaz”ların ixracı məqsədilə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanı əhatə edən “yaşıl enerji dəhlizi”nin icrasına başlanılıb. ABŞ ilə bu enerji dəhlizi üzrə əməkdaşlıq imkanları da nəzərdən keçirilib.

Bundan başqa, SOCAR “Neft və Qazın Dekarbonizasiyası Xartiyası”na (OGDC) qoşulub, bununla da məşəldə yandırmaları sıfıra endirmək, sıfır metana çatmaq kimi hədəflərin reallaşdırılmasını diqqət mərkəzində saxlayıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında Yaşıl Enerji Zonasının yaradılması istiqamətində görülən işlər də diqqət çəkir. Xatırladaq ki, işğaldan azad olunan ərazilər Yaşıl Enerji Zonası elan edilib. Beynəlxalq məsləhətçi şirkətin cəlb olunması ilə həmin ərazilər üçün Yaşıl Enerji Zonası konsepsiyası hazırlanıb. Bununla bağlı Nazirlər Kabinetinin xüsusi sərəncamı ilə Tədbirlər Planı təsdiqlənib və həmin plan tam şəkildə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”na daxil edilib.

Qarabağ və Şərqi Zəngəzurda ictimai binaların günəş panelləri ilə təchiz olunması, yolların və küçələrin işıqlandırılmasında bərpaolunan enerji əsaslı avadanlıqlardan istifadə edilməsi diqqətdə saxlanılıb. Qazlaşılmayan binalarda isə təbii ki, artıq istilik enerjisinin alınması üçün müəyyən qurğuların quraşdırılması və isti suyun əldə olunması üçün müəyyən yanaşmaların tətbiqinə də başlanılıb.

Yaşıl Enerji Zonasının yaradılması ilə bağlı 2022–2026-cı illəri əhatə edən tədbirlər təkcə bərpaolunan enerjinin inkişafı ilə məhdudlaşmayıb, enerji keçidinin bütün komponentləri üzrə fəaliyyəti də əhatə edib. Bu çərçivədə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ümumi gücü 636 KVt olan Arximed qurğusu, 200-dən çox fərdi yaşayış evində günəş kollektoru, 170-dən çox evdə günəş paneli, ictimai və sosial binalarda ümumi gücü 800 kVt-dan çox olan günəş enerjisi sistemləri quraşdırılıb , 2300-ə yaxın LED lampasından istifadə olunub və günəş enerjisi əsaslı, enerji səmərəli işıq dirəkləri basdırılıb, “ağıllı” dayancaqlar, elektrik doldurma məntəqələri istifadəyə verilib.

Əlbəttə, sadalanan layihələr davamlı xarakter daşıyır və bütün səylər də bu innovativ təcrübənin geniş tətbiqinə, Qarabağ və Şərqi Zəngəzurun enerji səmərəliliyində nümunəvi bölgəyə çevirilnəsinə yönəldilir. Şübhəsiz ki, əsas məqsəd də dövlət başçısının vurğuladığı kimi, düşməndən azad edilən ərazilərimizin dünyanın qibtə edəcəyi şəkildə qurulmasıdır.

Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında xalis sıfır emissiyalı Yaşıl Enerji Zonası konsepsiyası mühüm əhəmiyyətə malikdir. Azərbaycanın gücünü ifadə edən bu nəhəng quruculuq prosesində adları çəkilən iqtisadi rayonların enerji ilə təminatı məqsədilə qısa müddətdə 2000 kilometrdən artıq müxtəlif gərginlikli elektrik verilişi xətti çəkilib, Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları inşa olunub, 20 yarımstansiya, ümumi gücü 75 MVt olan 13 stansiya bərpa edilərək istifadəyə verilib. Xankəndi şəhərinin Azərbaycanın enerji sisteminə qoşulması, düşməndən təmizlənən ərazilərimizin Şuşa yarımstansiyası vasitəsilə elektrik enerjisi ilə təminatı reallaşdırılıb.

Energetika nazirinin müavini, COP29 Azərbaycan üzrə baş icraçı direktor Elnur Soltanov jurnalistlərə açıqlamasında bildirib ki, COP29-a evsahibliyinin Azərbaycana verilməsi bizim “yaşıl enerji” sahəsində atdığımız addımlara verilən mükafatdır. Eyni zamanda, respublikamızın fəaliyyətini bütün dünyaya göstərmək üçün bu, bir fürsətdir.

Elnur Soltanov diqqətə çatdırıb ki, bərpaolunan enerji potensialı baxımından çox zəngin olan Azərbaycan neft və qaz sahələrində region və dünya üçün təhlükəsizlik, habelə iqtisadi mənada dəyər mənbəyinə çevrilib. Neft və qaz dəhlizlərini yaradan və bununla bütün dünyaya uğur nümayiş etdirən Azərbaycan “yaşıl enerji”nin reallaşmasında da dünyada lider mövqedə olan ölkələrin sırasında yer alıb.

“Yaşıl enerji”nin reallaşdırılması istiqamətində görülən işlər davamlı xarakter daşıyır və bütün səylər də bu innovativ təcrübənin geniş tətbiqinə, Qarabağ və Şərqi Zəngəzurun enerji səmərəliliyində nümunəvi bölgəyə çevrilməsinə yönəldilir. Şübhəsiz ki, əsas məqsəd də dövlət başçısının vurğuladığı kimi, Qarabağ və Zəngəzurun dünyanın qibtə edəcəyi şəkildə qurulmasıdır.

Burada bir məqamı da xatırlatmaq istərdik. Mütəxəssislərin fikrincə, ənənəvi elektrik enerjisi istehsalından “yaşıl enerji”yə sürətli keçid müəyyən zaman tələb edir. Bu məsələdə investisiya qoyuluşu da zəruri amillərdən biridir. Amma bərpaolunan enerjiyə keçid heç də neft, qaz və kömür kimi enerji mənbələrinin istifadəsinə son qoymaq anlamına gəlmir. Dövlətimizin başçısı çıxışlarının birində bu məqama toxunaraq bildirib: “Ənənəvi yanacaq növləri – neft-qaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq. Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında bu vəzifəni qoymuşuq. Müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsnasında bu məsələlərin həlli gözlənilir”.

Beləliklə, dövlət başçımızın vurğuladığı kimi, ölkəmizdə istər neft-qaz hasilatının sabitləşməsi, istərsə də bu sahənin ixrac imkanlarının genişləndirilməsi ilə bağlı davamlı tədbirlər həyata keçirilməklə bərabər, “yaşıl enerji” mənbələrinin sürətlə işə salınması da zamanın prioritet istiqaməti kimi diqqətdə saxlanılır və bu yöndə davamlı layihələr gerçəkləşdirilir. Qısa dövr ərzində “təmiz ətraf mühitə və yaşıl artıma malik ölkə” təşəbbüsünün gerçəkləşməsi istiqamətində görülən genişmiqyaslı işlər də bunun parlaq ifadəsidir.

***VB AYRAMOV***
***XQ***

# Naxçıvanda ekoloji müzakirə

**İqlim dəyişikliyinin təsirlərinin azaldılması istiqamətində ölkəmizdə həyata keçirilən ardıcıl tədbirlər və yerlərdə bu sahədə görülən işlər və COP29-a hazırlıqlar Naxçıvan şəhərində təşkil olunan konfransda geniş müzakirə edilib.**

Tədbirdə muxtar respublikada Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Naxçıvan Muxtar Respublikası ekologiya və təbii sərvətlər naziri Xanlar Mustafayev çıxış ediblər.

“İqlim dəyişikliyi ilə mübarizədə görülən tədbirlər və iqlim dəyişikliklərinin ətraf mühitə təsirləri, alternativ enerjidən istifadə” mövzusuna həsr edilən konfransda COP29 gündəliyindən irəli gələn məqsədlər və onların muxtar respublikada yerinə yetirilməsi ilə bağlı hesabatlar dinlənilib.




Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli



konfransda çıxış edərək bildirib ki, muxtar respublikanın sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramının 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planında meşə fondunun açıq sahələrində yeni meşəliklərin salınması və mövcud meşə sahələrinin bərpa edilməsi, yaşıllıqların mühafizəsi və artırılması əsas fəaliyyət istiqaməti kimi müəyyənləşdirilib. Bu da muxtar respublikada iqlim dəyişikliklərinin ətraf mühit komponentlərinə təsirlərinin minimuma endirilməsi işinə mühüm töhfə verəcək.

Səlahiyyətli nümayəndə qeyd edib ki, meşə örtüyünün artırılması, yeni meşə zolaqlarının və yaşıllıqların salınması, meşəsalma və ağacəkmə aksiyalarının, “yaşıl” nəqliyyata keçid və metan emissiyalarının azaldılması 2024-cü ildə diqqətdə saxlanılıb. Belə ki, bu il muxtar respublikanın 550 hektar ərazisini əhatə edən yaşıllaşdırma proqramı hazırlanıb, yaz əkin mövsümündə 431 hektar sahədə əkin işləri aparılıb. Həmçinin Dövlət Proqramında mərkəzləşdirilmiş tullantı poliqonunun və bərk-məişət tullantılarının emalı müəssisəsinin yaradılması və bu sahədə maddi-texniki bazanın gücləndirilməsi nəzərdə tutulub ki, bu da gələcəkdə tullantı sektoru üzrə emissiyaların azaldılması baxımından mühüm addım olacaq.

Bildirilib ki, hazırda muxtar respublikanın xüsusi mühafizə olunan təbiət əraziləri bu bölgənin 27 faizini əhatə edir. Bu səbəbdən də muxtar respublikada ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi prioritet məsələlər sırasındadır.

Bu gün muxtar respublikada iqlim dəyişiklikləri və qlobal istilik effekti ilə mübarizədə atmosferə təsir göstərən müəssisələrdə filtirlərin, qaztutucu, toztutucu və digər qurğuların quraşdırılması, tullantıların norma daxilində saxlanılması, alternativ enerji mənbələrindən istifadənin geniş tətbiqi, yaşıllıq sahələrinin artırılması, bərk məişət və təhlükəli tullantıların düzgün idarə olunması istiqamətində sistemli iş aparılır.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Qardaşlığın enerji dəhlizi

## *Azərbaycan, Qazaxıstan və Özbəkistan birgə “yaşıl” müəssisə yaradır*

**Astana şəhərində keçirilən Mərkəzi Asiya ölkələrinin energetika nazirlərinin birinci iclasında Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş layihəsinin razılaşdırılması, layihənin ilkin texniki-iqtisadi əsaslandırılması üçün texniki tapşırığın təsdiq olunması, texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün İtaliyanın CESI şirkətinin seçilməsi və tərəflərin milli enerji şirkətlərinin iştirakı ilə birgə müəssisənin yaradılması barədə məlumat verilib.**

Toplantıda iştirak edən Azərbaycanın energetika nazirinin müavini Orxan Zeynalovun sözlərinə görə, Mərkəzi Asiyadan Azərbaycana və daha sonra Avropaya “yaşıl enerji” ixracı məqsədi ilə Azərbaycan, Qazaxıstan və Özbəkistanın enerji sistemlərinin birləşdirilməsi layihəsinin icrası çərçivəsində yaxşı dinamika və irəliləyiş var.



Nazir müavini qeyd edib ki, sənədin yüksək səviyyədə tezliklə imzalanmasının layihənin uğurla həyata keçirilməsinə töhfə verəcəyinə inanır: “Azərbaycandan keçən bu və digər ixrac dəhlizləri “yaşıl enerji”nin Mərkəzi Asiya ölkələrindən Avropaya ötürülməsi üçün geniş perspektivlər açır”.

O.Zeynalov bildirib ki, BMT-nin noyabr ayında Bakıda keçiriləcək COP29 iqlim konfransı çərçivəsində “yaşıl enerji”yə keçidin inkişafı üçün yüksək səviyyəli silsilə tədbirlər nəzərdə tutulub. O cümlədən, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) ilə birgə dövlət başçıları səviyyəsində Mərkəzi Asiya-Azərbaycan Enerji İnvestisiya Forumunun keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, mayın 1-də Azərbaycan, Özbəkistan və Qazaxıstan tərəfindən üç ölkənin enerji sistemlərinin inteqrasiyasına dair əməkdaşlıq memorandumu imzalanıb.

Memorandumda nəzərdə tutulur ki, iştirakçılar Xəzər dənizinin dibi boyunca və digər ölkələrin ərazisində yüksək gərginlikli kabel çəkərək, texniki-iqtisadi baxımdan ən optimalını həyata keçirməklə enerji sistemlərinin birləşdirilməsi imkanlarını araşdırmaq niyyətindədirlər. Sənəd, həmçinin Avropa İttifaqı ölkələrinə “yaşıl enerji” satmağı hədəfləyir.

***XQ***

# COP29 sənədli film müsabiqəsi

**COP29 Azərbaycan Əməliyyat Şirkəti qlobal iqlim problemləri və onların həll yollarına geniş ictimaiyyətin diqqətinin cəlb olunması istiqamətində fəaliyyətin davamı olaraq beynəlxalq sənədli film müsabiqəsi layihəsini təqdim edir.**




“Dəyişikliyin sədaları: Qlobal iqlim fəaliyyətinə baxış” adlı müsabiqədə iştirak üçün dünyanın istənilən ölkəsindən sənədli film çəkilişləri sahəsində təcrübəsi olan şəxs və şirkətlər dəvət olunurlar.

Təşəbbüsün əsas məqsədi qlobal iqlim fəaliyyətinin gündəmdə saxlanılması, ətraf mühit problemlərinin həllinə yönələn kollektiv səylərin səsinə səs verməkdir. Belə ki, layihə sənədli film müəlliflərinin yaradıcı potensialını aktual iqlim mövzularına yönəldərək, bu sahədə fəaliyyət göstərən şirkət və şəxslər üçün iqlim problemlərinin həllində öz kreativ yanaşmalarının tətbiqi üzrə təşviqat platforması olacaq.

Müsabiqənin əsas mövzuları biomüxtəliflik və ekosistemlərin qorunması, su ehtiyatlarının səmərəli idarə olunması, gender və ətraf mühit məsələlərinin təsirləri, yerli bilik və təcrübələr, bərpaolunan enerji həlləri kimi müxtəlif istiqamətləri əhatə edir. Videomateriallar ümumilikdə 5 fərqli nominasiya üzrə müxtəlif əhatəli meyarlar üzrə ixtisaslaşmış ekspert komissiyası tərəfindən qiymətləndiriləcək.

Müsabiqənin şərt və tələbləri barədə ətraflı məlumat COP29 rəsmi veb-səhifəsindən əldə edilə bilər. Qeyd olunmuş tələblərə cavab verən videoməhsullar sentyabrın 15-dək documentary.competition@cop29.az elektron poçt ünvanına göndərilməlidir. Layihənin yekununda tam və qısametrajlı kateqoriyalarda qalib olan filmlər noyabrda Bakıda keçiriləcək COP29 konfransında, eyni zamanda, COP29-un rəsmi veb-saytında və sosial media hesablarında nümayiş etdiriləcək.

***XQ***

# Çağdaş təhsilin innovativ hədəfləri

## Yaxın illərdə Azərbaycan bu sahədə öncül ölkələrdən biri olacaq

**Müsahibimiz Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərovdur**



Ölkənin islahatçı təhsil qurucularından sayılan Cəfər Cəfərov müxtəlif illərdə BDU-nun tarix fakültəsinin dekan müavini, Gənclər və İdman Nazirliyinin gənclərlə iş baş idarəsinin rəisi vəzifələrində çalışmış, BMT İnkişaf Proqramı və Azərbaycan hökumətinin bir sıra layihələrində milli koordinator olmuşdur. 2000-2001-ci illərdə Fulbrayt proqramının qalibi kimi Nyu-York Universitetinin Dövlət İdarəçiliyi Məktəbində tədqiqatçı alim vəzifəsində çalışmış, BMT-nin mərkəzi qərargahında "Elektron hökumət" layihəsinin icraçılarından biri olmuşdur. O, Dünya Azərbaycanlılarının I Qurultayında qurumun Əlaqələndirmə Şurasının İdarə Heyətinin üzvü seçilmiş, 2003-2004-cü illərdə Beynəlxalq Mətbuat Mərkəzinin direktoru vəzifəsində işləmişdir.
Azərbaycan tarixinin müasir problemləri, turizm və ali pedaqoji təhsilin inkişaf perspektivləri ilə bağlı respublikada və xaricdə nəşr olunan 90-dan çox kitabın, tədris-metodiki vəsaitin, elmi məqalənin müəllifi, professor Cəfər Cəfərov 2006-2014-cü illərdə Azərbaycan Turizm İnstitutunun, 2014-2016-cı illərdə onun bazasında yaradılmış Azərbaycan Turizm və Menecment Universitetinin rektoru olmuşdur. Bütünh bu məsul vəzəfələrdə təşəbbüskarlıq və məsuluyyətlə çalışmış alim-pedaqoq Prezident İlham Əliyevin 23 iyun 2016-cı il tarixli sərəncamı ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru təyin olunmuşdur.

Ötən dövrdə ali təhsil ocağında birsıra islahatlar və yeniliklər həyata keçirilmiş, tədrisin məzmunu və maddi-texniki bazası yenilənmiş, abituriyentlərin MİQ və digər imtahanlarda, karyera inkişaflarında əhəmiyyətli irəliləyişlər baş vermişdir.

Professor Cəfər Cəfərov Avstriyanın IMC/FH KREMS Universitetinin fəxri doktoru, Avrasiya İpək Yolu Universitetləri Konsorsiumu İcraedici Şurasının üzvü, ADPU-da fəaliyyət göstərən Dissertasiya Şurasının sədri, eləcə də bir neçə yerli və beynəlxalq elmi jurnalların baş redaktoru və redaksiya heyətinin üzvüdür. Soydaşımız bir müddət Türkiyənin Ali Təhsil Keyfiyyət Şurasının xarici qiymətləndiricisi kimi fəaliyyət göstərmişdir. Cəfər Cəfərov "Şöhrət" ordeni və bir sıra medallarla təltif olunmuşdur.

***– Cəfər müəllim, istərdik, söhbətə ölkənin qocaman və nüfuzlu ali məktəblərindən birinin rektorunun təhsilin və müəllimin cəmiyyətdəki rolu və ölkəmizdə bu sahədə aparılan işlərə münasibəti ilə başlayaq.***

– Təbii ki, təhsil hər bir fərdin və cəmiyyətin həyatında olduqca mühüm rol oynayan zəruri bir resursdur. Cəmiyyətin təhsil səviyyəsi o xalqın həyat tərzini, bəşəri sivilizasiyada qazandığı uğurları, tərəqqiyə verdiyi töhfələri və çağdaş inkişafda tutduğu yeri şərtləndirən amildir. Təhsil millətin gələcəyə etdiyi ən dəyərli və gəlirli yatırım, özünün varlığı və inkişafının qarantıdır.

Elə bu kontekstdən yanaşdıqda təhsil prosesinin əsas elementi və bu prosesin mərkəzində rol alan fiqur kimi müəllim ön plana çıxır. Məhz müəllimlərin gərgin əməyi və səyi nəticəsində yetişən nəsillər yeni-yeni bilik və bacarıqlara yiyələnir, onlarda milli vətənpərlik ruhu, eyni zamanda, ümumbəşəri humanist və əxlaqi dəyərlər daha da dərindən təşəkkül tapır.

Ulu öndər Heydər Əliyev və ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev milli təhsil sisteminin inkişaf etdirilməsi və dünyanın qabaqcıl təhsil sistemləri arasında özünə layiqli yer tutaraq rəqabətqabiliyyətliliyinin təmin olunması istiqamətində ardıcıl tədibirlər həyata keçirmişlər. Bu tədbirlər bu gün də dövlət başçısının siyasətində ən vacib prioritetlər arasında yer alır. Bunlara misal olaraq "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı", "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" kimi konseptual sənədləri göstərmək olar.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin 44 günlük Vətən müharibəsində doğma torpaqlarımızı işğaldan azad edən rəşdətli Azərbaycan Ordusunun əsas hissəsi son 20 ildə milli təhsil və dövlət gənclər siyasətinin yetirmələri olan savadlı, bacarıqlı, eyni zamanda vətəni hər şeydən çox sevən igid gənclərimizdən ibarət idi. Hansı ki, bu gün həmin gənclərin azad etdiyi doğma torpaqlarımıza – Qarabağ və Şərqi Zəngəzura obrazlı formada belə ifadə etmək olarsa, "təhsillə" dönürük. Ağalı kənd məktəbi ilə başlayan bu estafet artıq böyük yol qət edərək Füzuli, Laçın, Şuşadan keçib, yeni tədris ilində öz tələbələrini qarşılamağa və qapılarını bütün dünyaya açmağa hazırlaşan Qarabağ Universitetinə çatıb.

***– Qeyd etdiyiniz kimi, doğma Qarabağ və Şərqi Zəngəzurda bu gün sürətli bərpa-quruculuq işləri və bölgəyə "Böyük Qayıdış" prosesi həyata keçirilir. Yeni tədris ilindən işğaldan azad olunmuş ərazilərdə ilk universitet olan Qarabağ Universiteti fəaliyyətə başlayır. Bölgəyə həyatın yenidən qayıtması və təhsil sisteminin inkişafının ölkəmizin ümumi inkişafına töhfəsi haqqında fikirlərinizi öyrənmək istəyərdik.***

– Vurğulanmalıdır ki, Azərbaycan Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq, bu ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və burada yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Bununla bağlı regionda əhalinin dayanıqlı məskunlaşmasının təmin olunmasının ən vacib elementi burada təhsil sisteminin yenidən qurulması və ölkə təhsil sisteminə reinteqrasiya edilməsi məsələsidir. Bildiyimiz kimi, 2022-ci ildə başlayan Böyük Qayıdış prosesi bu gün də sürətlə davam edir. Bu prosesdə orta ümumtəhsil məktəbləri ilə yanaşı, regionda müvafiq ixtisaslaşmış təhsil müəssisələrinin, mədəniyyət mərkəzlərinin, ən əsası isə ali təhsil ocaqlarının fəaliyyətə başlaması ən mühüm həlqələrdəndir.

Qarabağ regionunda ümumtəhsil sistemi ilə yanaşı, tarixən ali təhsil ənənəsi də mövcud olmuşdur. Fəxarət hissi ilə deyə bilərik ki, burada ilk ali təhsil ocağı Ulu öndərin təşəbbüsü ilə 1969-cu ildə ozamankı Azərbaycan Pedaqoji İnstitutu, indiki Pedaqoji Universitetin filialı kimi qurulmuşdur. İnstitut 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş, ərazilərimizin mənfur düşmənlər tərəfindən işğalı dövründə fəaliyyətini dayandırmışdır.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra məhz bu ənənələri bərpa edərək regionun potensialını yenidən özünə qaytarmaq məqsədilə Prezident İlham Əliyev Xankəndi şəhərində mövcud olmuş ali təhsil müəssisəsinin bazasında dünyaya elm və təhsil, mədəniyyət mərkəzi kimi səs salacaq Qarabağ Universitetinin yaradılması haqqında 28 noyabr 2023-cü il tarixli Sərəncam imzalamışdır. Qüdrətli və qalib Azərbaycanın sülh simvollarından birinə çeviriləcək Qarabağ Universiteti artıq növbəti tədris ilində öz tələbələrini qarşılamağa hazırlaşır.

Regiondakı inkişafın, məskunlaşma və təhsil infrastrukturunun yenidən qurulmasının ölkəmizin ümumi inkişafına verəcəyi töhfəyə gəldikdə isə, qeyd olunmalıdır ki, Qarabağ bölgəsinin zəngin mədəni ənənələrinin, eləcə də böyük iqtisadi potensialının yenidən ölkə həyatına inteqrasiya olunmasının bir tərəfdən Azərbaycanın iqtisadi-sosial inkişafına əhəmiyyətli qatqısı olacaqsa, digər tərəfdən bu 30 ildən artıq müddətdə ardıcıl urbisidə məruz qalmış, tamamilə xarabalığa çevrilmiş, nəhayət, qətiyyətli siyasi iradə və "dəmir yumruq" hesabına, qüdrətli Azərbaycan Ordusunun gücü ilə işğaldan azad olunmuş onlarla şəhər, qəsəbə və kəndlərin yenidən çiçəkləndirilməsi, bu ərazilərdən didərgin düşən insanların öz yurd-yuvalarına qayıtmaları ilə bütün dünyaya böyük bir humanizm və quruculuq – sülh mesajı verəcək, Azərbaycanın bütün ərazilərində əbədi suverenliyimizin carçısı olacaqdır.

***– Ölkəmiz bu il dünya birliyinin ən nüfuzlu toplantılarından biri olan COP29-u keçirməyə hazırlaşır. Eyni zamanda, 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunub. Bu mötəbər tədbir və ekoloji il, şübhəsiz, təhsil sferası üçün də önəmli hədəflər müəyyən edib.***

– Bəli, COP29 dünya birliyinin bəşəriyyətin problemlərini müzakirə etdiyi ən mötəbər və böyük miqyaslı tədbirlərindən biri olmaqla ona rəhbərlik edən ölkənin də beynəlxalq arenadakı nüfuzu və etibarını nümayiş etdirir. Bu baxımdan hər şeydən öncə COP29-un ölkəmizdə keçirilməsi haqqında qərarın özü Azərbaycanın artan nüfuzunun və gücünün göstəricisidir. Digər tərəfdən, COP29 ərəfəsində on minlərlə turist və rəsmi qonaqlar, eləcə də siyasətçilər, ziyalılar, alimlər, ekoaktivistlər ölkəmizə səfər edəcəklər.

Bunlar birləşib Azərbaycan həqiqətləri, ölkənin zəngin mədəniyyəti və böyük turizm potensialının tanıdılması üçün unikal fürsət, eyni zamanda böyük bir həmrəylik festivalı olacaqdır. Həmçinin bu çərçivədə təbiətə qayğı, təbii mühitin qorunması və inkişaf etdirilməsi məsələləri ən yüksək səviyyədə bir daha diqqət mərkəzinə gətirilir, ölkəmiz yaşıl dünyamızı qorumaq naminə bütün dünyaya həmrəylik çağırışı edir.

Bu həm də iqlim dəyişikliyi kimi qlobal ekoloji problemin həlli istiqamətində beynəlxalq birliyin çıxış yollarını axtardığı və dünyanın dayanıqlı inkişafı naminə müvafiq qərarlar alacağı olduqca əhəmiyyətli bir tədbirdir.

Sadalananları ümumiləşdirsək, COP29 və "Yaşıl dünya naminə həmrəylik ili" ölkəmizin həyatında mühüm dəyişikliklərə vəsilə olacaq mötəbər hadisələr kimi qiymətləndirilə bilər. Xüsusən, təhsil sahəsində təbiətə daha həssas yanaşma, ətraf mühitin və biomüxtəlifliyin mühafizəsi üçün ictimai-mədəni təfəkkür səviyyəsinin daha da yüksəldilməsi baxımından əhəmiyyəti böyükdür.

Biz təkcə cəmiyyət arasında deyil, müxtəlif tədbirlərin görülməsində, təhsil proqramlarının məzmununda, yeni yetişən gənclərimizin təfəkkürlərinin formalaşmasında bu müsbət dinamikanın şahidi olacağıq. Minilliyin inkişaf məqsədlərinin, o cümlədən ekoloji mədəniyyətin yeni nəsildə daha təsirli formalaşması təhsilin əsas məzmun xətlərindən biri kimi təhsil ictimaiyyətinin diqqət mərkəzində olmalıdır.

***– Pedaqoji kadrlar hazırlayan bir ali məktəbin rəhbəri olaraq müəllimlərin işə qəbulu və sertifikasiya imtahanları haqqında sizin fikirləriniz oxucular üçün maraqlıdır.***

– Bəli, Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin müəllimlər ocağı, müəllim kadrlarının yetişdirildiyi əsas mərkəzdir. Təkcə bu faktın özü burada fəaliyyət göstərməyin necə böyük məsuliyyət tələb etdiyinin nümunəsidir. Ulu öndərin vaxtilə Pedaqoji Universitetin professor-müəllim heyəti ilə görüşündə ifadə etdiyi bir fikri yada salmaq istərdim: "Müəllimlər müəllimi olmaq ikiqat şərəfli və eyni zamanda, ikiqat məsuliyyətli işdir".

Əvvəla, ADPU-da bütün müəllimlik ixtisasları üzrə, eləcə də bakalvriat səviyyəsində 25 ixtisas, magistratura səviyyəsində 30 ixtisaslaşma, doktorantura səviyyəsində isə 33 ixtisas üzrə yüksəksəviyyəli kadr hazırlığı həyata keçirilir. Bu ixtisas və ixtisaslaşmalar arasında, eyni zamanda təhsilin aktual sahələri üzrə yeni ixtisaslaşmalar da yer alır.

Pedaqoji Universitetdə son dövrlərdə aparılan islahatlar, yazılı və hibrid imtahan sistemlərinin tətbiqi, 2020-ci ildə bütün ixtisaslar üzrə tədris proqramlarının yenilənməsi, infrastrukturun təkmilləşdirilməsi, eləcə də praktik-laborator imkanların artırılması həm yüksək nəticə göstərən tələbələrin universitetə cəlb olunmalarında, həm də ADPU məzunlarının MİQ imtahanlarında yüksək nəticələr əldə etmələrində özünü göstərir. Bu nəticələr bizi sevindirir və daha da əzmlə çalışmağa ruhlandırır. Bu imtahanlarda istər test mərhələsində, istərsə də müsahibə mərhələsində yüksək nəticə göstərənlər arasında ADPU-nu son illərdə bitirən gənc müəllimlərin üstünlük təşkil etməsi universitetimizin uğur göstəricilərindən sayıla bilər.

ADPU məzunlarının nəticələrindən danışmışkən diqqətinizə çatdırmaq istərdim ki, 2023/2024-cü tədris ilində Pedaqoji Universitetin bakalavr proqramlarından məzun olan 2207 nəfərdən magistratura imtahanlarında iştirak edənlərinin 812 nəfəri (36,7 faiz) ixtisas seçimi mərhələsində iştirak etmək hüququ qazanıb. Onlardan 567 nəfəri (cari il məzunlarının 25,6 faizi) Azərbaycanda magistraturaya qəbul olunub.



Bu günə olan məlumata görə cari il məzunlarından 69 nəfəri xarici ölkələrin ali təhsil müəssisələrinin magistraturalarına sənəd təqdim edib. Keçən il analoji göstərici 80 nəfər olub. Lakin xarici ölkə universitetlərində magistraturaya qəbul prosesinin hər ilin oktyabr ayınadək davam etdiyini nəzərə alsaq, bu il ötən ilə nisbətən daha yaxşı nəticə əldə olunacağını proqnozlaşdırmaq olar. Ötən il Pedaqoji Universitetdən məzun olan 2025 nəfər bakalavrdan 385 nəfəri (19 faiz) magistraturaya qəbul olunmuşdur.

Pedaqoji Universitet keçən 103 il ərzində böyük bir inkişaf yolu keçmiş, ölkədə ilk Azərbaycandilli ali təhsil ocağı kimi 180 mindən çox pedaqoji kadr hazırlamışdır. Bu dövrdə ADPU-nun Türkiyə, İran, Bolqarıstan, Çin, Yəmən, habelə Rusiya, Gürcüstan, o cümlədən digər keçmiş sovet respublikalarından minlərlə məzunları olmuşdur. Hazırda bu ənənə genişlənərək davam edir. Belə ki, ADPU-nun tələbələri mobillik çərçivəsində Türkiyə, Danimarka, Litva, Polşa, Niderland və Ruminyada təhsillərini davam etdirdiyi kimi, Pedaqoji Universitetdə də Türkiyə, Çin, Rusiya, Gürcüstan, Pakistan, Özbəkistan, Türkmənistan və s. ölkələrdən olan 200-dək əcnəbi tələbə təhsil almaqdadır.

Həmçinin deyim ki, ADPU-nun Məzun koordinasiya və karyera şöbəsi tərəfindən məzunlarımızla daim əlaqə saxlanılır, onların karyera inkişafları izlənilir və müvafiq təhlillər aparılır. Təkcə onu demək kifayəfdir ki, Dövlət Məşğulluq Agentliyi tərəfindən ali təhsil müəssisələri ilə əməkdaşlıq əsasında hazırlanan "Məzunların məşğulluq reytinqi" platformasının təqdim etdiyi məlumatlara əsasən 2018-2021-ci illərdə ADPU məzunlarının 51,6 faizi işlə təmin olunub. Bu da analoji dövrdə ölkə üzrə məzunların ümumi məşğulluq səviyyəsinə yaxın göstəricidir (58,8 faiz) və Pedaqoji Universitet məzunların işlə təmin olunması üzrə ölkə universitetləri arasında 4-cü yerdədir. Fərdi rəqəmlərə baxdıqda isə əgər 2021-ci ildə Pedaqoji Universitetin məzunlarının ümumi məşğulluğu 63 faiz təşkil edirdisə, bu göstərici 2022-ci ildə 71 faiz, 2023-cü ildə isə 90 faizdən çox olmuşdur.

Müəllimlərin sertifikasiyası və ona görə yüksək nəticə toplayan müəllimlərin rəğbətləndirilməsi olduqca dəyərli addımdır. Heç kimə sirr deyil ki, keçmiş onilliklərdə müxtəlif səbəblərdən kifayət qədər hazırlığı olmayan şəxslər müəllim adını qazanaraq məktəblərə yol tapmış və bu hal məktəbdəki pedaqoji prosesin keyfiyyətinə, ümumilikdə müəllim nüfuzuna neqativ təsir etmişdir. Elm və Təhsil Nazirliyinin apardığı sertifikasiya prosesi ağrılı olsa da, aparılması zəruri olan işdir. İnanıram ki, yaxın bir neçə ildə bütün orta ümumtəhsil məktəblərində bu prosesin yekunlaşması ilə məktəbdə pedaqoji prosesin daha da güclənməsinin, müəllim obrazının daha da yüksəlməsinin şahidi olacağıq.

Bütün bunları nəzərə alaraq deyə bilərəm ki, MİQ və sertifikasiya imtahanları tələbələrimizin təhsil müddətlərində əldə etdikləri bilik və səriştələrin ölçülməsi və onların işlə təmin olunmaları, əməklərinin stimullaşdırılması baxımından olduqca faydalı, mühüm və zəruri bir alətdir.

***– XXI əsrin dəyişən tələbləri qarşıya təhsil sahəsində yeni nəsil tədqiqatçıların və idarəçilərin yetişdirilməsi kimi məsul bir vəzifə qoyur. Rəhbərlik etdiyiniz ali təhsil müəssisəsində bu istiqamətdə hansı addımlar atılır?***

– Bu sahədə dövlət siyasətinin tərkib hissəsi kimi zəruri addımlar atılır və Pedaqoji Universitet olaraq biz də bu tendensiya içərisində öz məsuliyyətimizi dərk edir, adekvat reaksiyalar verməyə çalışırıq. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Amerika Birləşmiş Ştatlarının Corc Vaşinqton Universiteti ilə birgə "Təhsil siyasəti və idarəetməsi" ixtisası üzrə ikili diplom magistr proqramı, ADPU-nun Strateji İnkişaf Mərkəzinin Elm və Təhsil Nazirliyi ilə birgə icra etdiyi dövlət ümumi təhsil müəssisələrində direktor vəzifəsində çalışan və ya çalışmaq arzusunda olan pedaqoji kadrların idarəetmə ilə bağlı bilik və bacarıqlarının təkmilləşdirilməsinə dəstək göstərən peşəkar inkişaf proqramı olan "Məktəb liderliyi" proqramı, eləcə də universitetdə magistratura səviyyəsində son illər kadr hazırlığına başlanılmış "Təlim və təhsilin təşkili və metodikası (SABAH)", "Menecment (təhsilin təşkili və idarə olunması)", "Menecment (ali təhsilin təşkili və idarə olunması)", eləcə də MBA proqramı üzrə "Təhsilin təşkili və idarə olunması" və "Marketinq (təhsil üzrə marketinqin təşkili və idarə olunması)" kimi yeni ixtisaslamalar bu sahədə icra olunan kompleks və ardıcıl fəaliyyətə misal ola bilər.

Bir məsələyə də toxunum. Bu, Azərbaycanın da bir neçə ildir iştirak etdiyi Beynəlxalq Şagird Qiymətləndirmə Tədqiqatlarıdır. Hansı ki, bu tədqiqatların ölkəmizdə həyata keçirilməsi və nəticələrin təhlil olunmasında ADPU-nun Strateji İnkişaf Mərkəzi yaxından iştirak edir. Belə ki, TIMSS, ICILS, PISA, PIRLS beynəlxalq şagird qiymətləndirmələri və TALIS – Təlim və Tədris üzrə Beynəlxalq Araşdırma Tədqiqatı üzrə öyrənən və öyrədənlər üçün təlimlərin təşkili, pilot, sınaq və əsas mərhələlər mərkəzin əməkdaşları tərəfindən həyata keçirilir. Mərkəz tərəfindən tələbələr ölkəmizin qoşulduğu beynəlxalq qiymətləndirmələr haqqında məlumatlandırılır və bu sahədə müxtəlif fəaliyyətlərə cəlb olunurlar.

***– Son dövrlərdə bəzi ali məktəblərimiz nüfuzlu beynəlxalq reytinqlərdə yer alırlar. Bu yöndə daha da irəliləmək üçün, sizcə, hansı addımlar atılmalıdır?***

– Hər bir beynəlxalq reytinq qiymətləndirilməsinin özünəməxsus spesifik tələbləri və meyarları var. Bizim universitetlərimiz üçün beynəlxalq reytinqlərdə yer almaqla yanaşı, kompleks şəkildə özünü inkişaf etdirmək, dünyanın qabaqcıl tədqiqat-innovasiya universitetləri arasında özünə yer tutmaq, Azərbaycan elm və təhsilini dünya miqyasına çıxarmaq ən ümdə vəzifə olmalıdır. Bunun üçün ilkin mərhələdə bütün ali təhsil ocaqlarımız institusional və proqram akkreditasiyalarından keçməli və özünün təsdiq olunmuş Strateji İnkişaf Planı əsasında öz hədəflərinə doğru irəliləməlidir.

Bu sırada ən mühüm meyarlardan biri kimi, professor-müəllim heyətinin tədiqiqatlarının nəticələrinin beynəlxalq elmmetrik bazalarda indekslənən nüfuzlu jurnallarda dərc olunmasını təmin etmək, bunun üçün müəyyən təşkilati-texniki və stimullaşdırıcı tədbirlər görmək olar. Burada yanaşmalar müxtəlifdir. Məsələn, bu məqsədlə Pedaqoji Universitetdə, onun bütün filialları və kollecində professor-müəllim heyətinin reytinq qiymətləndirilməsi sistemi tətbiq olunur ki, burada aparılan tədqiqatlar, onların nəticələrinin nüfuzlu və impakt faktorlu jurnallarda dərcinə görə əməkdaşların əməkhaqqılarına stimullaşdırıcı əlavələr ödənilir.

Biz inanırıq ki, yaxın illərdə Pedaqoji Universitet də profilinə uyğun olaraq beynəlxalq reytinqlərdə öz yerini tutacaqdır. Ümumiyyətlə, ölkə təhsil sistemində gedən sürətli inkişaf nəticəsində yaxın gələcəkdə ali təhsil ocaqlarımızın daha da inkişaf edəcəyi, ölkəmizdə dünyamiqyaslı fundamental tətbiqi və nəzəri tədqiqatların səviyyəsinin yüksələcəyi və Azərbaycanın təhsil sahəsində dünyada tanınan innovasiyalar ölkəsi kimi diqqəti cəlb edəcəyini demək olar. Bu gözləntilər təkcə bir istək və ya arzuya dayanmır, bu, Azərbaycanın 2030 hədəfləri arasında yer alan ölkəmizin milli inkişaf prioritetləridir.

***– Söhbətimizin sonunda islahatçı rektorun abituriyentlərin ixtisas seçimi ərəfəsində gənclərə tövsiyələrini eşitməyə ehtiyac duyuruq.***

– Mən hər şeydən əvvəl ixtisas seçimi edəcək hər bir abituriyentə demək istərdim ki, qoy bilsinlər ki, seçdikləri ixtisas həm onların, həm də daimi inkişafda olan ölkəmizin gələcəyinə bu və digər mənada təsir edir. Ona görə də, həqiqətən istədiyiniz, özünüzü gördüyünüz, bu sahədə cəmiyyətə fayda verəcəyinizə əmin olduğunuz ixtisasları seçim siyahınızda qeyd edin.

Digər tərəfdən, qəbul olunacağınız ixtisasdan asılı olmayaraq, özünüzdə 3 məziyyəti inkişaf etdirməyə çalışın. Əgər vətənpərvərlik ruhunu, xarici dil bilikləri və yüksək rəqəmsal savadlılığı bir arada birləşdirə bilsəniz artıq uğur və müvəffəqiyyətə çata biləcəksiniz.

***– Maraqlı söhbətə görə təşəkkür edirik.***

*Müsahibəni apardı:*
***Taleh MİRZƏYEV***

Qayıdışın akkordları

# Qarabağın gözəllikləri turizmə qucaq açır





**İşğaldan azad edilmiş ərazilərin ölkənin ümumi həyatına reinteqrasiyası turizmin inkişafı üçün də önəmli imkanlar yaradır.**



Qarabağ və Şərqi Zəngəzurda mövcud turizm resursların zənginliyi ölkə iqtisadiyyatının böyüməsi üçün bundan səmərəli şəkildə istifadəni zəruri edir. Təbii ehtiyatları, yerləşdiyi çoğrafi mövqeyi və xalqımıza məxsus mədəni irsin qədimliyi bölgənin turizm əhəmiyyətini daha da artırır.

Sahə mütəxəssisləri qeyd edirlər ki, turizmin iqtisadiyyatımıza müsbət təsiri baxımından Qarabağın bu sferada potensialı xüsusi önəm daşıyır. Son zamanlar dövlətimiz sözügedən bölgənin turizm sənayesinə cəlb edilməsi istiqamətində mühüm addımlar atır. İşğaldan azad edilmiş Qarabağımızın tarixi görkəmi özünə qaytarılır, insanların məskunlaşması üçün ən müasir infrastruktur qurulur, eləcə də dünya təcrübəsi əsasında turizm imkanları yaradılır. Hazırda Azərbaycan bir çox beynəlxalq layihələrə qoşularaq, turizmin ölkələrlə təcrübə mübadləsinə geniş yer verir. Əlbəttə, məqsəd yaxın gələcəkdə iqtisadiyyatda böyük payı olan turizm sektorunu gəlir gətirən sahə səviyyəsinə çatdırmaqdır. Bir çox bölgələrimizdən fərqli olaraq, bu gün Qarabağda turizmin bütün sahələrinin inkişaf etdirilməsi üçün əlverişli şərait mövcuddur. Füsünkar təbiətin qoynunda yerləşən cənnətməkan diyarda eko, sağlamlıq, dağ, aqro və ekstremal turizm obyektləri təşkil etməyin mümkünlüyü getdikcə aydın görünür.

**Bəs, ekspertlər bölgənin turizm imkanlarını necə qiymətləndirirlər? Qarabağın turizm regionu kimi tanıdılması istiqamətində hansı addımlar atılmalıdır?**

Turizm üzrə ekspert Ruslan Quliyev hesab edir ki, Qarabağ zonasının zənginliklərindən biri burada sağlamlıq turizmi imkanlarının mövcudluğudur. Bölgədə ilkin olaraq müalicə-sağlamlıq turizminin inkişafına önəm verməyin vacib olduğunu bildirən ekspert dedi:

– Şuşada, Kəlbəcərdə, Laçında, Zəngilanda, Ağdamda çoxsaylı termal qaynaqlar var ki, bunların hərəsi bir dərdin dərmanıdır. Təkcə Laçında 300-dən artıq müxtəlif su qaynaqları var. Vaxtilə Zəngilanda Qotur su deyilən yerdə sanatoriya, Ağdamda Şəfa sanatoriyası olub. İlkin olaraq indiyə qədər mövcud olan təsisatların informativ xarakterli bir xəritə planının, məlumat bazasının yaradılması lazımdır. Digər tərəfdən, azad edilmiş ərazilərimizdəki termal qaynaqlardan nümunələr götürülə, bir çox müalicəvi sanatoriya-kurort müəssisələrinin yaranmasının əsası qoyula bilər. Düşünürəm ki, bu sanatoriyalar müəyyən vaxtdan sonra müalicəvi əhəmiyyətinə görə dünyanın məşhur sağlamlıq mərkəzlərinə çevrilər və ölkəmizə əlavə turist cəlb etmək mümkün olar. Qarabağda Silikon Vadisinin analoqunu da yaratmaq olar. Azərbaycanın bu illər ərzində beynəlxalq platformalarda Dünya Turizm Təşkilatında, sağlamlıq turizmi qurumlarında, ekoturizm cəmiyyətlərində təmsil olunmasından da geniş istifadə edə bilərik. Ölkəmizin 44 günlük Vətən müharibəsindəki qələbəsi bütün dünya reytinqində, istər siyasi, istər mədəni, istərsə də digər sahələrdə onun nüfuzunu artırıb. Bizə sərmayə qoymaq istəyən təşkilatlar turizm quruculuq işlərində də iştirak etmək istəyirlər. Bu iştirak turizmlə bağlı da ola bilər. Bu məsələlər paralel aparılarsa, biz 6-8 il ərzində Qarabağ turizminin 85 faizini qura bilərik.

**Bölgənin turizm imkanlarının əsas istiqamətlərini şərh edən digər ekspert Samir Dübəndi bildirdi ki, nadir şəraiti olan Qarabağda fərqli destinasiyaların yaradılması olduqca zəruridir.**

– Artıq hər bir vətəndaş rahat şəkildə Qarabağa səfər edə bilir. Avtobuslar müntəzəm işləyir, turagentlər səfərlər təşkil edirlər, Füzulu Hava Limanına Bakıdan uçuşlar açılıb. Geniş miqyaslı turist marşrutlarından danışmaq hələ tezdir. Qeyd olunan ərazilərdə minalardan təmizləmə, infrastrukturun yaradılması işləri sürətlə davam edir. Bu işlər tamamlandıqdan və ya daha böyük ərazini əhatə etdikdən sonra turizm marşrutlarının genişlənməsi başlayacaq. Hazırda bu yöndə tədqiqat, araşdırma və planlaşdırma işləri görülməkdədirlər. Qarabağ və Şərgi Zəngəzurun hər bir güşəsinin turizmin inkişafı baxımından müəyyən qədər potensialı var. Zəngin təbii resurslar, qədim tarix, mədəniyyət, ləziz mətbəx, müalicəvi mənbələr və sair amillər yol verir ki, biz əminliklə bu əraziləri etno, eko, təbii, yaşıl, kulinariya, ekstrim turizm məkanına çevirə bilək. Qarabağa səfər edən insanların sayı ötən illə müqayisədə artıb. Müntəzəm nəqliyyat imkanları, infrastrukturun yaradılması, mütəşəkkil formada turların təklifi səfərlərin artmasına şərait yaradan amillərdəndir. Qarabağda elə unikal imkanlar var ki, biz o yerlərdə fərqli turizm marşurutları yaradıb, bu ərazilərdə ölkəmizin yeni turizm istiqamətlərinin formalaşmasına nail ola bilərik. Laçın, Kəlbəcər rayonlarında sürətli axar çaylarda və digər su hövzələrində kanoeing, rafting, kayaking kimi fəaliyyətləri yarada bilərik.

Ekspert daha sonra qeyd etdi ki, Qarabağ və Şərgi Zəngəzurda Milli Parklar və Turizm-Rekreasiya Zonaları da yaradılacaq. Bu işə qərar verən müvafiq qurumlar həmin layihənin üzərində çalışırlar. Yaxın gələcəkdə doğma Qarabağımız dünyanın bir çox ölkələrindən turistləri, tələbələri, alimləri, tədqiqatçıları cəlb edən yer kürəsinin ən parlaq turizm ulduzlarından biri olacaq. Bunun üçün biz əlimizdən gələni etməliyik. Bu vacib missiya hər birimizin müqəddəs borcudur.

Ekspert rəylərindən aydın olur ki, Qarabağ və Şərqi Zəngəzurun mövcud turizm potensialının öyrənilməsi istiqamətində məqsədyönlü tədbirlər davam edir. Yaxın perspektivdə bölgənin turizm imkanlarının genişləndirilməsi üçün böyük planlar nəzərdə tutulur. Hazırda abadlıq-quruculuq işlərinin intensiv aparıldığı bölgədə turizm infrastrukturunun qurulması dövlətimizin prioritet məqsədlərdən hesab olunur.

***Ceyhun ALIŞLI***
***XQ***

# Xankəndi ali təhsil mərkəzinə çevrilir

## Dərslər Azərbaycan və ingilis dillərində aparılacaq




**Universitetdən verilən məlumatda, həmçinin qeyd edilir ki, ingilis bölməsi üzrə təhsil alacaq tələbələrin birinci ildə dil biliyinin təkmilləşdirilməsi üçün işlər görüləcək. Növbəti ildən isə bütün tədris ingilis dilində aparılacaq. Rus bölməsi üzrə hələlik qəbulun olmadığı bildirilib.**

İlkin mərhələdə Qarabağ Universitetində kadr hazırlığı 6 fakültədə – Pedaqoji, İncəsənət, Humanitar və sosial elmlər, İqtisadiyyat, Mühəndislik və Turizm fakültələrində aparılacaq. 2024/2025-ci tədris ili üçün universitetdə ümumilikdə 27 ixtisas üzrə 1120 tələbənin təhsil alacağı nəzərdə tutulur. Bundan əlavə, universitetdə 8 ixtisas üzrə SABAH qrupları fəaliyyət göstərəcək.

Sentyabr ayında müxtəlif ali təhsil müəssisələrinin birinci tədris ilini (kursunu) bitirmiş tələbələri arasında imtahan və müsahibə keçirilməklə əlavə olaraq 200-250 tələbənin də Qarabağ Universitetinin SABAH qruplarında təhsil alması planlaşdırılır.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il noyabrın 28-də “Qarabağ Universitetinin yaradılması haqqında” sərəncam imzalayıb. Sərəncama əsasən, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksək ixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində “Qarabağ Universiteti” publik hüquqi şəxs yaradılıb.

***XQ***

# Sinqapurda qızıl medal qazanan məktəblimiz

**Azərbaycan məktəblilərinin də beynəlxalq uğurları getdikcə çoxalır. “SASMO 2024” olimpiadalarına qatılaraq medal əldə edən istedadlı şagirdlərimiz Sinqapurda keçirilən “SIMOC 2024” olimpiadasında iştirak ediblər. 35 ölkədən 2200 şagirdin iştirak etdiyi bilik yarışında Azərbaycanı 69 şagird təmsil edib.**

3 mərhələdən ibarət olimpiadada əldə edilən nəticələr şagirdlərin riyaziyyat və məntiq sahələrinə maraqlarının və bu sahələrdə bilik və bacarıqlarının necə olduğunu göstərib. Bakı Dövlət Universitetinin nəzdində Gənc İstedadlar Litseyinin 7-ci sinfini bitirən Alikamal Həsən yarışmada qızıl medal qazanıb. Bu onun ilk uğuru deyil. Hələ 5-ci sinifdə oxuyarkən Azərbaycan Respublikası Təhsil İnstitutunun təşkil etdiyi Lütfi-Zadə riyaziyyat və məntiq olimpiadasında qızıl medal alaraq birinci yerə layiq görülüb. SASMO Azərbaycan olimpiada mərkəzinin təşkil etdiyi yarışlara qoşulan yeniyetmə qızıl və gümüş medallar qazanıb. O, Clobol Olimpik Centrin təşkil etdiyi riyaziyyat və məntiq olimpiadalarında da iştirak edərək dəfələrlə qızıl medallar alıb.

2023-cü ildə GOC-un təşkil etdiyi Türkiyə Matematik olimpiadasının son mərhələsi İzmir şəhərində keçirilib. Alikamal həmin olimpiadada iştirak edib və 100 bal toplayaraq qızıl medalla vətənə qayıdıb. İstedadlı soydaşımız “Kenquru Beynəlxalq Riyaziyyat” müsabiqəsinin ilk medalçılarından və “Kenquru Beynəlxalq Riyaziyyat” düşərgəsinin ilk iştirakçılarındandır.

***PÜNHAN***
***XQ***

# Laçınım – cənnətim mənim!

**Yağı tapdağından azad edilmiş və dirçəldilmiş, ədəbi mövcudluğuna yön almış Laçının indiki növraqını duyub-anlamaq, onun füsunkarlığının sehrinə düşmək üçün tək bircə gecə Həkərinin sahilində dayanıb şəhərin əsrarəngiz işıqlarını seyr etmək kifayətdir.**

O Həkərinin ki, illər boyu əsarətdən dəliyə dönüb, yağıya inad qəzəblə coşaraq sağını-solunu yuyub aparıb, suyunun rəngi laçınlıların qanı kimi qara axıb. İndisə azadlığından məst halda yatağında nazlanan sonadır Həkəri. Hərdən ərkəsöyünlük etsə də ziyarətinə gələnlərin sayı artdıqca o da sakitləşir, durulan suyu şırıl-şırıl axır, sahili boyu uzanan parkda dincələnlərə lay-lay çalır...

İlk səfərimizdə Laçının iddialı şəkildə dünyanın ən gözəl şəhərləri ilə rəqabət aparmağa hazırlaşdığını yazmışdıq. İndi 8 ay sonra yenidən Həkərinin yanından yuxarı boylandıqca, insan qaynayan dolanbac küçələrini gəzdikcə və şəhərin ən hündür yerinə çıxıb oradakı seyrangahdan aşağı baxdıqca bir daha əmin olduq ki, Laçını hansısa şəhərlə müqayisə etmək ədalətsizlikdir. Çünki Laçın özünəməxsusluğu, sirli aurası ilə təkdir, yeganədir!

Əslində, bu dəfəki səfərimizin də əsas məqsədi ilk baxışdan gözəlliyinə vurulduğumuz, qısa müddətdə yenidən qurularaq Tanrının yer üzündəki cənnətinə çevrilmiş Laçına yenidən qovuşmaq idi. Bir dəfə gödüklərimizə yenidən baxıb, daha çox zövq almaq istəyirdik. Ancaq şəhərdəki dəyişikliklər ilk gəlişimizdəki kimi heyrətləndirici idi. Şəhər ötən müddətdə daha da gözəlləşib, inkişaf edib, canlanıb.

Əvvəl erməni vandallığının acı nəticələri kimi ürək dağlayan dağıdılmış evlərin xarabalıqlarının yerində indi şəhərin ümumi planına uyğun, aurası ilə həmahəng, yaraşıqlı evlər ucalır. Axşamlar həmin evlərin işıqları da digər evlərin, küçələrin işıqlarına qoşulur, Laçının gur işıq seli qəhrəman oğullarımızın qovub sərhəddən o yana keçirdikləri paxıl düşmənlərin gözlərini kor edir. Axı bu işıqlar Ermənistanın sərhəd



ərazilərindən yaxşı görünür...

Şəhərin baş hissəsində ermənilər tərəfindən dağıdılmış bir neçə evdə tikinti-bərpa işləri aparılmayıb. Öyrəndik ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilmiş digər ərazilərində olduğu kimi, Laçında da yaradılacaq İşğal və Zəfər muzeyləri kompleksi məhz bu ərazidə yerləşəcək. Dövlət başçısının 2023-cü il mayın 28-də təməlini qoyduğu kompleks sözügedən muzeylərdən və dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət olacaq. Nə qədər vacib bir addımdır!

Qoy, Laçına ziyarətə gələnlərimiz, ələlxüsus da gələcək nəsil bu barbarlığı görsün, yaddaşına həkk etsin ki, xalqımızın yaşadığı faciələri heç zaman unutmayaq. Elə işğaldan azad edilmiş ərazilərimizə səfər edən xarici qonaqlara da ilk olaraq belə dağıntıları göstərmək lazımdır. Əsasən də başqa vaxt ədalətdən, insan haqlarından, demokratiyadan dəm vurub, əməldə uzun illər boyu işğalçı Ermənistanı gizli-aşkar dəstəkləyən ölkələrin müsyölərinə, serlərinə...

Laçında həyat qaynayır, küçələrində şütüyən avtomobillərin ardı-arası kəsilmir. Daimi məskunlaşmış sakinlərin sayı artıqca şəhər yenidən öz xoşbəxt günlərini yaşamağa başlayıb. Qonaq-qarası da çoxalıb Laçının. O qədər ki, sərin yay axşamları Həkəri sahilinə axışan insanların sayını az qala paytaxtımızın gözəl Xəzərin sahilindəki bulvarına gələnlərlə müqayisə etmək olar. Laçınlıların, yerli turistlərin çoxluğu onların yerləşmə məsələlərini də aktuallaşdırır və bu məsələ də diqqətdə saxlanılır. Öyrəndim ki, şəhərdə hazırda yeni otel kompleksinin və hostelin tikintisi aparılır. Yəni yaxın gələcəkdə qonaqlar üçün yerləşmə yerlərinin sayı kifayət qədər artacaq.

Böyük Qayıdışa dair I Dövlət Proqramına uyğun olaraq daimi yaşamaq üçün Laçına qayıtmış sakinlərin işlə təminatı, onların sosial-məişət qayğılarının həlli də diqqətdədir. Laçında, o cümlədən rayonun Böyük Qayıdışın növbəti ünvanlarından olan Zabux və Sus kəndlərində mütəmadi əmək yarmarkaları keçirilir, laçınlılar müxtəlif qurumlarda özlərinə iş tapırlar. Ən sevindiricisi isə odur ki, doğma yurduna dönmüş sakinlər arasında ailə biznesi quranlar da az deyil.

Şəhərdə açılmış böyük supermarketlərdən birinin yanında konteyner tipli köşklə təmin edilmiş Vətən müharibəsi iştirakçısı Elnur Abdullayev kimi. O, evinin, 4, 9 və 10 yaşlı 3 övladının dolanışığını ailə biznesindən əldə etdiyi qazancdan çıxarır. Söhbətimizdən öyrəndim ki, əvvəllər məcburi köçkün kimi Bakıda, Xəzər rayonunun Binə qəsəbəsində məskunlaşıb. Bir ildən artıqdır ki, doğma Laçınına qayıdıb və burada yaşamaq xöşbəxtliyini ilk dadanlardandır.



**Elnur həyatı yoldaşı Təhminə ilə əl-ələ verərək öz kiçik ailə bizneslərini yaradıblar. O, yenidən qovuşduğu Laçınını bu dünyasının cənnəti adlandıraraq dedi:**

– Mən, hər şeydən əvvəl, bir Vətən müharibəsi iştirakçısı kimi Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə minnətdarlığımızı bildirmək istəyirəm. Xoşbəxtəm ki, onun əsgəri kimi böyük zəfərimizlə nəticələnən haqq savaşında iştirak etmişəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Şükür bu günlərimizə. Laçına qayıtdıqdan sonra qərara gəldim ki, ailəmlə birlikdə öz işimizi quraq, zəhmətimizlə yaşayaq. Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədova müraciət etdim, mənə təmənnasız olaraq konteyner tipli köşk verildi. Cənab Prezidentimiz sağ olsun ki, Laçına belə humanist, hamının qayğısına qalan nümayəndə təyin edib.

Mən köşkdə dönər, çay, kofe hazırlayıb satıram. Hərdən vaxt edib dağlara çıxıram, oradan dərman bitkiləri – kəklikotu, qantəpər və s. yığıb gətirirəm. Həyat yoldaşım da evdə gündəlik tort, peraşki, məşhur Laçın kətəsi bişirir, gətirib burada satıb, dolanırıq. Yaxşıdı, şükür, alıcı qıtlığı çəkmirik. Öz sakinlərimiz, yerli və xarici turistlər, elə Məsim müəllimin özü, işçiləri satdıqlarımdan alırlar. Yəni təzə başladığım vaxtla müqayisədə indi işimiz qaydasına düşüb.

Dövlətimiz qısa müddətdə abad, möhtəşəm şəhər salıb bizim üçün. Heç işğaldan əvvəl belə deyildi. Evlərimizdə də hər cür şərait yaradılıb. Odur ki, biz özümüz də gərək zəhmətə qatlaşaq, işləyək, əl-ələ verib Laçını daha da gözəlləşdirək, inkişaf etdirək.

Onu da deyək ki, Laçında vaxtın necə keçdiyini hiss etmək mümkün deyil. Bu torpağa, onun daşına, qayasına, Həkərisinə olan sevgidən, uğrunda canlarından keçmiş məqamı uca şəhidlərimizin ruhuna olan hörmətdəndir yəqin ki. Vaxt bitir, qayıtmaq lazımdır, ancaq geri dönmək istəmirsən. Əvəzində qartal olub Laçının göylərində süzmək, bulaq olub torpağına süzülmək, yağış olub gözlərindən çilənmək keçir içindən, ürəyindən.

Beləcə, Laçınlaşmaq istəyir insan! Neyləmək olar, yenə könülsüz, tezliklə yenidən qayıtmaq arzusu ilə sağollaşdım Laçınla. Şükür, daha sənə “Əlvida” demirik Məhəbbətin dünya boyda məhəbbəti. Hələlik, görüşənə qədər, Laçınım mənim!..

***Mahir RƏSULOĞLU,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***

**Laçın**

# Rusiya–Ukrayna savaşı: səmada dronlar, yerdə dağıntılar...

**Rusiya-Ukrayna müharibəsində döyüşlərin əhatə olunduğu coğrafiya sürətlə genişlənir. Kurskda artıq 4 gündür ki, ağır döyüşlər gedir. Dünən Rusiyanın Lipetsk, Belqorod, Bryansk vilayətləri, eləcə də Krım yarımadası Ukrayna aviasiyasının raket hücumlarına məruz qalıb. Rusiya, öz növbəsində Ukraynanın şəhər və qəsəbələrini PUA "yağış"ına məruz qoyub.**

kəndlərinin əhalisi çoxdan dincliyini itirib. 2014-cü ildən bəri Rusiyanın özünə ilhaq etdiyi Krım yarımadası, xüsusilə, Sevastopol şəhəri son günlər Ukrayna hərbi aviasiyasının aramsız raket atəşinə tuş gəlir.




Bəli, böyük bir imperiyanın tərkibində olan iki qonşu slavyan dövləti hazırda bir-birinə qarşı sərt və amansız döyüşlər aparır. Ukraynalı məşhur publisistlərdən biri yazıb ki, "ölkənin səmasında dronlar peyda olanda, yerdə yanğın və dağıntılar baş verir. Ən dəhşətlisi isə budur ki, raket və PUA-lar özləri ilə ölüm və itkilər gətirir". Acı həqiqət budur ki, iki il yarımdır davam edən bu üzücü və hər cür resursların tükənməsinə səbəb olan savaş bitmək bilmir. Üfüqdə sülhün işartıları belə görünmür.

Müharibədə bəzən ilk baxışda inandırıcı görünməyən sürprizlər də olur. Belə ki, avqustun 6-da Ukrayna Silahlı Qüvvələri Rusiyanın sərhəddəki müdafiə xəttini yararaq Kursk vilayətinə daxil olublar və Sudja şəhəri də daxil olmaqla, 10 yaşayış məntəqəsini ələ keçiriblər. Dünən ərazidə qanlı toqquşmalar olub, lakin Rusiya ordusu ukraynalı desantçıları geriyə ata bilməyib.

Avqustun 9-da Rusiyanın Lipetsk vilayəti Ukrayna Silahlı Qüvvələri tərəfindən kütləvi PUA hücumuna məruz qalıb. Məlumata görə, Lipetskdə pilotsuz təyyarələrin hücumu zamanı 6 nəfər yaralanıb. Bundan başqa, vilayətin 4 yaşayış məntəqəsinin sakinlərinin təxliyəsinə başlanılıb, bu məqsədlə müvəqqəti yerləşdirmə mərkəzləri yaradılıb. 400-dən çox evin sakinləri təxliyə olunub.

Belqorod vilayətinin Ukrayna Silahlı Qüvvələrinin "kütləvi hücumuna məruz qaldığını" bildirən qubernator Vyaçeslav Qladkov qarşı tərəfin 29 ədəd PUA-sının vurulduğunu açıqlayıb. Onun sözlərinə görə, hücum nəticəsində ölən və yaralananlar olmasa da, bir sıra yaşayış yerlərinə, həmçinin sənaye müəssisələrinə ziyan dəyib.

Belqorod da dünən Ukrayna dronlarının hədəfində olub. Qonşu Bryansk vilayətinin səmasında isə 4 PUA vurulub. Regionda itki və dağıntıların olmadığı bildirilib. Ekspertlərin sözlərinə görə, böyük ehtimalla dağıntılar olub. Sadəcə tərəflər öz itkilərini gizlətməyə çalışırlar. Bu, savaşların tarixində təbii haldır. Axı, belə qarşıdurmalarda təkcə odlu silahlar deyil, informasiyalar da döyüşür.

Bir vaxtlar təbii gözəllikləri, kurortları ilə dünyanı heyran qoyan Krımın şəhər və

Dünən Rusiya Hava Hücumundan Müdafiə Qüvvələri Ukraynaya məxsus 75 PUA-nın məhv edildiyini bildirib. Rusiya ordusu Donetsk və Xarkov şəhərləri istiqamətində intensiv hücumlar həyata keçirib. Lakin ruslar quruda irəliləyişə nail ola bilməyiblər.

Bu arada Ukrayna Prezidentinin müşaviri anonimlik şərti ilə nüfuzlu "The Washington Post" nəşrinə verdiyi müsahibədə deyib ki, "hərbçiləri Kursk vilayətindəki döyüşlərdə "yüzlərlə" insanı əsir götürüb". Qəzet, həmçinin yazır ki, Ukraynanın Kurska hücumu Kiyevdə bir çox rəsmilərin gözlədiyindən daha uğurlu olub.

Rusiya ordusu ukraynalıların sensasiyalı Kursk əməliyyatına necə cavab verəcək? Bu sual indi çoxlarını düşündürür. Yeri gəlmişkən, dünən Rusiya Prezidenti Vladimir Putin Təhlükəsizlik Şurasının iclasını keçirib. Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, toplantıda terrorçuluqla mübarizə məsələləri diqqət mərkəzində olub.

*Məsaim ABDULLAYEV*
*XQ*

# Almaniya Koreya yarımadasında

## NATO ölkələrinin bölgədə fəallığı Pxenyanı narahat edir

**Almaniyanın müdafiə naziri Boris Pistorius Hind-Sakit okean regionuna bir ilə yaxın fasilələrlə davam edən çoxmərhələli səfərini başa vurub. O, Sinqapur, İndoneziya, Hindistan, Tayland və Filippin kimi ölkələrə səfər edib. Lakin onun bu həftə Cənubi Koreyaya səfəri daha çox diqqət çəkib. Seula səfəri zamanı cənab Pistorius Almaniyanın Koreya Respublikasında ABŞ-nin rəhbərlik etdiyi BMT Komandanlığına (UNC) rəsmi olaraq qoşulduğunu açıqlayıb. Beləliklə, Almaniya komandanlığa qoşulan 18-ci ölkə olub.**



Xatırladaq ki, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olmasından sonra və ABŞ-la keçmiş SSRİ arasındakı razılaşmaya uyğun olaraq, Koreya 38-ci paraleldən iki hissəyə - şimalda KXDR və cənubda Koreya Respublikasına bölünüb. Formal olaraq iki Koreya dövləti arasında 1950-1953-cü illər müharibəsi bitməyib. Buna görə də ayırıcı xətdə Birləşmiş Millətlər Təşkilatının (BMT) bayrağı altında çoxmillətli silahlı qüvvələr var və onlar Amerika komandanlığına təhvil verilib. UNC-in məqsədi sülhü bərpa etmək və atəşkəs müqaviləsini yerinə yetirmək, eyni zamanda, Şimali Koreya ilə əlaqə kanalı kimi xidmət göstərməkdir.

Cənubi Koreyanın Pxentxeke şəhərindəki UNC qərargahında keçirilən mərasimdə çıxış edən cənab Pistorius Berlinin Hind-Sakit okean regionunda sülh və təhlükəsizliyə sadiqliyini vurğulayıb. "Avropanın təhlükəsizliyi Hind-Sakit Okean regionu ilə sıx bağlıdır", – deyən alman naziri ölkəsinin iki Koreya arasındakı sərhədin qorunmasına kömək edəcəyini bildirib: "Əminəm ki, xüsusən də belə vaxtda, dünyanın böhranlar və müharibələrlə formalaşdığı bir vaxtda biz birlik nümayiş etdirməliyik". Cənab Pistorius əlavə edib ki, sülh və sabitliyi pozmaq istəyənlərlə, ümumi nizama zərbə vuranlarla qətiyyətlə mübarizə aparılmalıdır. O, həmçinin sentyabr ayından etibarən Almaniya Bundesverinin A319 müşahidə təyyarəsinin yarımada üzərində havadan monitorinq aparılmasında iştirak edəcəyini açıqlayıb. Cənab Pistoriusun sözlərinə görə, bu, silahlara nəzarət müqavilələrinin yerinə yetirilməsini havadan təmin etməyə zəmanət verəcək.

Öz növbəsində, BMT-nin Koreyadakı qüvvələrinin komandanı, amerikalı general Pol Lakamera bildirib ki, Almaniyanın UNC-yə qoşulması "BMT Komandanlığı üçün mövcud perspektivləri və resursları şaxələndirir və bizim kollektiv bilik və imkanlarımızı genişləndirir". Mərasimdə, həmçinin Danimarkanın Cənubi Koreyadakı səfiri Sven Ollinq iştirak edib. O, UNC-nin Almaniyanın 18-ci üzv olması ilə daha güclü olduğunu bildirib: "Biz Koreyada sülh və təhlükəsizliyi qorumaq missiyamızda əməkdaşlığı səbirsizliklə gözləyirik".

"Focus" jurnalı xəbər verir ki, alman nazirin bölgəyə səfəri və bəyanatları KXDR hakimiyyətinin kəskin reaksiyasına səbəb olub. Pxenyanın fikrincə, Almaniyanın BMT-nin çoxmillətli silahlı qüvvələrində iştirakı regionda gərginliyi artırır. KXDR Xarici İşlər Nazirliyinin nümayəndəsinin nöqteyi-nəzərindən, Birləşmiş Ştatlar UNC-nin fəaliyyətini yenidən canlandırmağa çalışır, baxmayaraq ki, bu silahlı qüvvələr ötən əsrdə ləğv edilməli idi. Şimali Koreya Xarici İşlər Nazirliyinin bəyanatında deyilir ki, ABŞ-nin məqsədi bu qüvvələri NATO-nun Asiya versiyasına çevirməkdir.

Almaniyanın Federal Xarici İşlər naziri Annalena Barbok Şimali Koreyanın iddialarına cavab verib. Onun sözlərinə görə, "Almaniya öz hərəkətləri ilə əksinə, Koreya yarımadasında sülh və sabitlik siqnalı verir və bu regionda alman faktorunun mövcudluğunu gücləndirir". Xanım Barbok vurğulayıb ki, Almaniya üçün regionda qaydalara əsaslanan dünya nizamının qorunması prioritetdir. İyul ayının sonunda cənab Pistorius Berlində NHK telekanalına müsahibəsində bildirmişdi ki, sabit Hind-Sakit Okean regionu dünya üçün çox böyük əhəmiyyət kəsb edir. Çünki bu, naviqasiya azadlığını və dəniz zolaqlarının təhlükəsizliyini nəzərdə tutur. Nazir qeyd etmişdi ki, Çinin Hind-Sakit okean regionunda öz ərazilərini genişləndirmək cəhdlərinə ciddi diqqət yetirilməlidir.

*S.ELAY*
*XQ*

**Yaşantı**

# Ey saqqalı ağarmışlar...

**Bəlli ki, saqqalın ağlığı insanın ağsaqqal olması üçün yetərincə imtiyaz vermir. Çünki ağsaqqallıq elə bir bacarıqdır ki, bu, yaşa, savada, vəzifəyə, varlı və kasıb olmağa baxmaz. Bunun üçün, ilk növbədə, gərək sən hər kəsə, hər bir məsələyə haqqın, ədalətin gözü ilə baxasan, haqqı nahaqqın ayağına verməyəsən. Eyni zamanda, sözünlə əməlin bir olmalı, toplumu arxanca aparmağı bacarmalısan...**



Köhnə kişilər alın təri ilə qazanılan bir tikə çörəyi, bir dadım duzu əyri yolla əldə edilən var-dövlətdən uca tutublar. Əlbəttə, bu, hər kəsə qismət olmayan xoşbəxtlikdir. Ancaq atalar demiş: "halva, halva deməklə, ağız şirin olmur", halvanın ortaya çıxması üçün gərək onun ununu, şəkərini qazanasan, üstəlik də yaxşı bişirməyi bacarasan...

Yox, halvanın bu söhbətə o qədər də dəxli yoxdur, məqamı düşdü dedik. Bir də hər gün, günaşırı kimdi halva yeyən. Dükan-bazarda bəyəm azdı köhnə, hansı yağla bişirildiyi məlum olmayan şirniyyat, al ötür içəri, axırı nə olar, olar!

Dünya yaman dəyişib. Yaxşılar, sözübütövlər, halal qazancı haramdan üstün tutanlar çox azalıb. Bunu, demək olar ki, hər gün hiss edirik. İndi əyri yolun yolçuları düzləri aldadıb düzdə qoyurlar və bununla fəxr edənlər də olur. Bir də görürsən ki, belə dələduzlar, cələqırmışlar hansı məclisdəsə oturub yekə-yekə danışır, təmiz, vicdanlı adamlar isə susurlar. Oradakı adamların əksəriyyəti də o yaramazın dediklərinə haqq qazandırır...

Halbuki, bəyənmədiyimiz Sovetin vaxtında belələri cəmiyyətdə keçmişin qalığı sayılırdı, rüşvətxorlar, alverçilər, dəllallar, falabaxanlar hökumət və əhali tərəfindən gözümçıxdıya salınırdı. Doğrudur, onda da əyri yolla qazanc əldə edən, dövlətin malını mənimsəyən, südə su qatan, çörəyin çəkisini azaldan vardı. Daha indiki qədər harınlayanlar, rüşvətxor olub düzlükdən danışan, taxta başıynan xalqa ağıl öyrətməyə çalışan, özü əxlaqsız olub ekranda namusdan danışan bu qədər yox idi...

Deyəsən, mətləbdən bir qədər yayındıq. Amma diqqətlə fikir verilsə, o deyilənlərin, dolayı yolla mövzuya dəxli var. Çünki təbiətdə hər olayın, dəyişimin, qabarma-çəkilmənin zəncirvari olaraq bir-birinə bağlılığını qəbul ediriksə, cəmiyyətdə də buna bənzər hadisələr – inkişaf, mənəvi aşınma, adət-ənənələrin zədələnməsi prosesləri gedir.

Xalqın, toplumun həyatında böyük rol oynayan ağsaqqallıq da son onilliklərdə xeyli deformasiyaya uğrayıb. Bu, əlbəttə, indi daha çox cəmiyyətin, belə demək olarsa, bazar qanunları ilə idarə olunmasıyla və adət-ənənələrin aşınması ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illər ərzində respublikada taleyüklü məsələlərin həllində ağsaqqallara, xalqın inam bəslədiyi təcrübəli, qocaman insanlara arxalanırdı. Buna görə də bölgələrə səfərləri zamanı əmək qabaqcılları ilə görüşməklə yanaşı, həmin rayonun ağsaqqallarını da söhbətə dəvət edər, onların arzu-istəklərinin həyata keçirilməsinə xüsusi fikir verərdi.

Bir vaxtlar ağsaqqallar xalqın xeyir-şərində öndə gedər, hətta bəzən qan davasının aradan qaldırılması üçün vəsilə olardılar. Çünki belə şəxslərin eldə-obada böyük nüfuzu vardı. Onlar təmənnasız insanlar idilər. İmkanları daxilində kasıblara əl tutar, yetim-yesirə babalıq edər, ev-ailə qurmaları üçün çox şeylərindən keçərdilər. Özü də etdiklərini elə-obaya görk etməz, heç yerdə dilə gətirməzdilər. Bəzən eşidərdin ki, bir ağsaqqal dünyasını dəyişməzdən əvvəl olub-qalanını hansısa fəqir-füqəraya verilməsini vəsiyyət edib.

Türkiyənin tanınmış kino aktyoru var. Turqay Tanülkü. Çox mütəvazi bir ağsaqqaldı. Mən əvvəlcə onun filmlərdəki rollarını sevmişdim. Sən demə, bu insan həyatdakı əməllərinə görə daha böyük sevgiyə layiq imiş. Turqay bəy övladı olmadığına görə, cəza evindən çıxdıqdan sonra 26 uşaq və yeniyetməni övladlığa götürmüş, illərlə onların ehtiyaclarını qarşılamış, oxutmuşdur. Artıq həmin uşaqların 11nəfəri ailə qurmuş, ev-eşik sahibi olmuşdur. Və Turqay baba bu barədə, təxminən, iyirmi il heç yerdə, heç kəsə açıqlama verməmişdir...Özünün söylədiyinə görə, hazırda bu ailənin yüz nəfərdən çox üzvü var. Bax, insanlığa nümunə budur! Bu, həm də xalqına, Vətəninə xidmət edən bir ağsaqqalın ən gözəl, unudulmayacaq əməlidir.

...Bu günlərdə kənddə yas mərasiminə getmişdim. Orada olanların çoxunu tanıyırdım. Hacılar yuxarı başda oturmuşdular və sonradan gələn hacıları da çağırıb onların yanında yer eləyirdilər. Mənimlə yanaşı kənd məktəbinin müəllimi əyləşmişdi. Hər ikimiz sakit oturub məclisin gedişini izləyirdik. Arada müəllim mənə tərəf əyilib dedi ki, bu kəndin oxumuşları, ziyalısı bizik. Amma bizi sayıb, yuxarı başa dəvət eləmədilər. Halbuki dünənədək dələduzluq edən, sonradan pullanıb həccə gedənləri ağsaqqal sayırlar. Özü də görürsən, "yeddi eşşəkli xoca kimi" nə özlərini çəkib oturublar. Bunlar camaatın hansı dərdinə çarə olublar, hansı kimsəsizə əl tutublar? Biz heç, Yaqub kişi bu kənddə hər kəsə əlindən gələn köməyi edib, amma o da cavanların arasında oturub...

Deyilənlər həqiqət olsa da ona zarafatla cavab verdim:

– Müəllim, şəxsən mənim üçün bura daha rahatdı, siz də yuxarı başda oturmaq istəyirsizsə, həccə gedin...

Molla sözünü qurtarmamış söhbət başladı. Hərə bir məsələdən danışdı. Fatihə verilən kimi, durub yas sahibinə dil-ağış elədim, "son qəminiz olsun" deyib oradan uzaqlaşdım.

Evə çatanadək müəllimin sözlərini çox çək-çevir etdim. Kəndimin bir oğlu kimi özümü, əməllərimi mühakimə etdim. İllərlə elimdən-obamdan uzaq yaşadım, kəndimin problemlərinin həllinə əməlli-başlı köməyim dəymədi...Bu, mənim etirafımdır.

Artıq saç-saqqalım ağarıb. Mən öz peşəmdə ağsaqqal oldum, amma doğulub boya-başa çatdığım kənddə ağsaqqal ola bilmədim.

Buna görə isə mən həmişə özümü qınamışam...

Qaldı ki, sən elin-obanın xeyri üçün dəyərli əməl sahibi deyilsənsə, özünü qına, yoxsa məclisin hansı başında otursan da, sənə el ağsaqqalı kimi baxmayacaqlar. Böyük Nizami gözəl yazıb:

**Çalış öz xalqının işinə yara,**
**Dünya əməlindən geysin zərxara.**

*Səməd MƏLİKZADƏ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 169 (30573) 10 avqust 2024-cü il, şənbə

# Bədii gimnastlarımız finalda

**Paris Oyunlarında Azərbaycanın bədii gimnastika üzrə qrup hərəkətləri komandası təsnifat mərhələsində böyük uğurla çıxış edərək finala yüksəlib.**




Gimnastlarımız 5 halqa, 3 lent və 2 top proqramları üzrə çıxışların cəminə əsasən 62,000 xal toplayıblar. Zeynəb Hümmətova, Ləman Əlimuradova, Darya Sorokina, Güllü Ağalarzadə və Yelizaveta Luzandan ibarət Azərbaycan millisi bu nəticə ilə 8-ci yeri tutaraq final mərhələsinə çıxıb.

Qeyd edək ki, təsnifat mərhələsinin 8 ən yaxşısı bu gün keçiriləcək həlledici mərhələdə iştirak edəcək.

# Güləşçimiz bürünc medal uğrunda mübarizə aparacaq




**Paris Olimpiadasında sərbəst güləşçilərimizin çıxışı davam edir.**

Dünən millimizin üzvü Giorgi Meşvildişvili xalça üzərinə çıxıb. 125 kiloqram çəki dərəcəsində çıxış edən idmançımız misirli Diaeldin Əbdülmüttəliblə qarşılaşıb. 1/8 final mərhələsinə təsadüf edən görüş güləşçimizin 4:0 hesablı qələbəsi ilə başa çatıb. Təmsilçimiz növbəti raundda Muktur Laqvagerelli "tuş"la (tam üstünlük) məğlub edərək yarımfinala yüksəlib. İdmançımız finala gedən yolda isə Geno Petriaşviliyə (Gürcüstan) 0:7 hesabı ilə uduzub. Giorgi avqustun 10-da bürünc medal uğrunda yarışacaq.

# Hidayətin Dünya, Avropa və Olimpiya zirvəsi




**"Fransalı Joan-Benjamin Qaba ilə finaldan əvvəl Hidayətlə yenidən hər şeyi danışdıq. Hər ikimiz razılaşdıq ki, bu hekayədə gümüş medala yer yoxdur".**

Bunu Avropa Cüdo İttifaqının (EJU) saytına açıqlamasında Pekin Olimpiadasının qalibi Elnur Məmmədli deyib. O qeyd edib ki, iyulun 29-da, yarış günündə həmişəki kimi səhər tezdən oyandıq. Onun siması qətiyyətlə "çempion olacağam" deyirdi. Mən ona böyük motivasiya verdim. Xatırlatdım ki, ardıcıl 3 titulu - Avropa, Dünya və Olimpiya çempionu adını qazanacaqsa, Azərbaycan tarixinə düşəcək.

Yarış göstərdi ki, bu motivasiya bütün ilkin mərhələlərdə rəqiblərini məğlub edəndə Heydərovda olub. Olimpiya çempionu bu nailiyyətin arxasında dəstək verən çox insanların olduğunu bildirib:

–Xüsusilə, ölkəmizin Prezidenti İlham Əliyev, vitse-prezident Mehriban xanım Əliyeva, Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, milli federasiyamız, hakimlər heyəti, məşqçilər komandası - hər kəs bu möhtəşəm nəticənin əldə olunması üçün səylərini əsirgəməyib. 73 kq çəkidə - mənim kateqoriyamda 16 ildən sonra yenə çempionumuz var. Amma düzünü desəm, Hidayətin qızıl medalı mənim üçün bir idmançı kimi öz qələbəmdən daha dəyərlidir.

# "Bürünc" də sevindiricidir

**Hədəf qızıl medal idi. Amma şükürlər olsun ki, vətənə mükafatsız qayıtmıram. Olimpiadada medal qazandığım üçün sevinirəm.**



Bu sözləri Paris Oyunlarının bürünc mükafatçısı Həsrət Cəfərov (67 kq) deyib.

Güləşdə ilk medalı qazandığını vurğulayan təmsilçimiz digər güləşçilərimizin nailiyyətlərin davamını gətirəcəklərinə ümid etdiyini bildirib. O qeyd edib ki, gələcəkdə daha da yaxşı hazırlaşıb, bundan da yüksək nəticələr qazanmağa çalışacaq.

Qeyd edək ki, Həsrət Cəfərov bürünc medal uğrunda qırğızıstanlı Amantur İsmayılova qalib gəlib.

# "Azərbaycan Olimpiya Evi"ndə görüş

**XXXIII Yay Olimpiya Oyunları çərçivəsində Parisdə fəaliyyət göstərən "Azərbaycan Olimpiya Evi"ndə idmançılarımızın qələbəsinə həsr olunmuş görüş keçirilib.**

Görüşdə Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) Baş katibi Azər Əliyev, Fransadakı səfirimiz Leyla Abdullayeva, Olimpiya və dünya çempionları, bir çox beynəlxalq təşkilatın, müxtəlif ölkələrin rəsmi nümayəndələri, "Paris-2024" Olimpiya Oyunlarında ölkəmizi təmsil edən idmançılar və onların məşqçiləri, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri, jurnalistlər iştirak ediblər.

Qonaqlar arasında Parisdə ikiqat Olimpiya çempionu titulunu qazanmış Filippin gimnastı Karlos Yulo da iştirak edib və Azərbaycan idmançıları ilə qələbə təəssüratlarını bölüşüb.

Görüş iştirakçıları Olimpiya Oyunlarında gümüş və bürünc medal qazanan idmançılarımız Qaşım Maqomedovu və Həsrət Cəfərovu alqışlarla qarşılayıb, onlarla qürur duyduqlarını bildiriblər.



Vurğulanıb ki, XXXIII Yay Olimpiya Oyunlarında idmançılarımız bütün dünyaya Azərbaycan idmançısının iradəsini və mübarizliyini bir daha nümayiş etdirdilər.

"Azərbaycan Olimpiya Evi"ndə quraşdırılmış monitorlarda Azərbaycan Olimpiya Hərəkatı tarixinə dair film nümayiş etdirilib.

# "Samsung" Şimali Koreyaya aparılacaqmı?

**Cənubi Koreya Xarici İşlər Nazirliyi hesab edir ki, Paris Olimpiadasında Şimali Koreya komandasına hədiyyə edilən "Samsung" smartfonları BMT-nin Şimali Koreyanın sənaye avadanlıqlarına çıxışını qadağan edən qətnaməsini pozur. İndi Cənubi Koreya hökuməti Beynəlxalq Olimpiya Komitəsinin bu məsələ ilə bağlı qərarını gözləyir. Bu barədə "Yonhap" agentliyi Xarici İşlər Nazirliyindəki mənbələrə istinadən yazır.**



Olimpiya Oyunlarının tərəfdaşı olan "Samsung Electronics" şirkəti idmançılara Galaxy Z Flip smartfonunun Olimpiya versiyasını paylayıb. KİV-in məlumatına görə, Şimali Koreya idmançıları təklif olunan smartfonları qəbul ediblər. 2018-ci ildə Cənubi Koreyanın Pxençxan şəhərində keçirilən Qış Olimpiya Oyunları zamanı KXDR yığmasından Oyunlar bitdikdən sonra smartfonları geri qaytarmaq tələb olunurdu. Daha sonra idmançılar "Samsung"un təklif etdiyi qadcetlərdən tamamilə imtina etmişdilər.

# Olimpiyaçıların yemək narazılığı



**"Paris-2024" günlərində idmançılar Olimpiya kəndində yeməklərin çatışmamazlığı ilə yanaşı, qidanın tərkibində zülalın olmamasından narazılıqlarını bildirir, yeməyin keyfiyyətsizliyindən şikayətlənirlər.**

"Daily Mail" nəşrinin yazdığına görə, britaniyalı üzgüçü, 3 qat Olimpiya çempionu Adam Piti yeməkxanada uzun növbələrdən narazı olmaqla yanaşı, yeməklərin keyfiyyətsizliyini sərt tənqid edib. O deyib ki, istərsə "Olimpiada-2016"nın keçirildiyi Rio-de-Janeyroda, istərsə də son olimpiadanın təşkil olunduğu Tokioda yeməklər inanılmaz keyfiyyətli və bol çeşidli olub:

–Amma bu dəfə kifayət qədər proteinli qida variantları yoxdur. Uzun növbələr və yemək üçün 30 dəqiqə gözləmələrdən yorulmuşuq. Mən ət yemək istəyirəm. Yarışda yaxşı çıxış etmək üçün mənə ətlə qidalanmaq lazımdır. Çünki mən evdə də belə yeməklər yeyirəm. Burada niyə qida rasionumu dəyişməliyəm? Mən balığı sevirəm, amma insanlar onun içində qurd tapırlar. Bu yaxşı hal deyil.

Hava

# Aranda günəşli, dağlarda yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, avqustun 10-da Bakıda və Abşeron yarımadasında yağmursuz keçəcək. Səhər bəzi şəhərətrafı ərazilərdə zəif duman olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 21-26°, gündüz 31-36° isti olacaq.**



Atmosfer təzyiqi 757 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 22-27°, gündüz 33-38°, dağlarda gecə 12-17°, gündüz 18-23° isti olacaq.

*Səhifəni hazırladılar:*
*Səbuhi MƏMMƏDOV,*
*Leyla QURBANOVA,*
*Q.QASIMOV*
*XQ*

*2023-cü il fevralın 6-da Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən auditor fəaliyyətilə məşğul olmaq üçün Mirzəyev Təbriz Şahin oğlunun adına verilmiş dövlət qeydiyyat nömrəsi SA/514 seriyalı icazə sənədi itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3550
SİFARİŞ 1766
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00